# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 iyun 2026-cı il, çərşənbə axşamı
№ 107 (7174)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycandan Türkmənistana “Dostlug” hədiyyəsi



## Bakı növbəti beynəlxalq tədbirə ev sahibliyi edir

Bax səh. 3




## Gömrük qanunvericiliyi təkmilləşdirilib

Bax səh. 6

## WUF13 UN-Habitat üçün mühüm mərhələ oldu

Bax səh. 4



## Aqrar və sənaye sektorları üçün yeni güzəştlər

Bax səh. 5

## Beynəlxalq birlik mina probleminin həllinə dəstək verməlidir

Bax səh. 5

## Moskvadan Ermənistana növbəti xəbərdarlıq

Bax səh. 6

## Ələt İqtisadi Zonası beynəlxalq logistika qovşağı kimi formalaşır

Bax səh. 4



## ABŞ ilə İran üz-üzə - bu dəfə masa arxasında...

Bax səh. 7

# Azərbaycandan Türkmənistana “Dostlug” hədiyyəsi





İyunun 22-də Azərbaycana dövlət səfərinə gələn Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, dövlət başçıları rəsmi foto çəkdiriblər. Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə təkbətək və geniş tərkibdə görüşü olub. Azərbaycana dövlət səfərinə gəldiyinə görə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova təşəkkür edən dövlətimizin başçısı İlham Əliyev bu səfərə çox böyük əhəmiyyət verdiyini, onun ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət göstərəcəyinə əminliyini ifadə edib. Qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən geniş gündəliyin olduğunu, bu gün bir çox məsələlər üzrə fikir mübadiləsinin aparıldığını, müzakirələrin nümayəndə heyətlərinin iştirakı ilə davam etdiriləcəyini vurğulayan Prezident İlham Əliyev Türkmənistan Prezidentinin Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etməsindən məmnun olduğunu deyib. Dövlətimizin başçısı Türkmənistan nümayəndə heyətinin üzvlərinin səfər çərçivəsində azərbaycanlı həmkarları ilə səmərəli müzakirələr aparacaqlarına əminliyini bildirib.







Prezident İlham Əliyev ölkələrimiz arasında imzalanacaq sənədlərin əhəmiyyətinə də toxunub, bunu, münasibətlərimizin geniş gündəliyinin göstəricisi kimi qiymətləndirib.

Füzuli şəhərinə məscid hədiyyə etdiyinə görə Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova və Türkmənistana minnətdarlığını bildirən dövlətimizin başçısı bununla bağlı qərarın ötən il Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri çərçivəsində qəbul edildiyini və onun təməlinin Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilmiş Zirvə Görüşü çərçivəsində qoyulduğunu xatırladıb. Prezident İlham Əliyev Türkmənistan tərəfindən bu məscidin hədiyyə edilməsini ölkələrimiz arasında səmimi qardaşlıq münasibətlərinin daha bir nümayişi olduğunu deyib. Türkmənistanda Azərbaycanın Mədəniyyət Günləri çərçivəsində yaradıcı kollektivlərimizə göstərilən qonaqpərvərliyə görə türkmən tərəfinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı ötən il ölkəmizdə Türkmənistan Mədəniyyəti Günlərinin keçirildiyini xatırladaraq, humanitar sahədə belə dinamik əməkdaşlığın təbii olduğunu vurğulayıb. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini qeyd edən Prezident İlham Əliyev bunun, həmçinin qarşılıqlı fəaliyyətimizdə də mühüm amil olduğunu deyib.

Hazırda qarşıda qlobal gündəlikdə olan məsələlərin - nəqliyyat və enerji təhlükəsizliyinin dayandığını vurğulayan dövlətimizin başçısı bu xüsusda Azərbaycanın və Türkmənistanın həm milli səviyyədə, həm də birgə təşəbbüslər vasitəsilə yalnız regionda deyil, həm də qlobal səviyyədə çox mühüm rol oynadıqlarını, bu rolun gələcəkdə daha da artacağını deyib. Bu xüsusda Azərbaycan Prezidenti qeyd edib ki, geniş Avrasiya qitəsində geosiyasi proseslərin müsbət inkişafı bir çox hallarda bu sahələrdə sıx qarşılıqlı fəaliyyətimizdən asılı olacaq.





Görüşdə çıxış edən Prezident Sərdar Berdiməhəmmədov səmimi qəbula, göstərilən qonaqpərvərliyə və Azərbaycana dövlət səfərinə dəvətə görə minnətdarlığını bildirib. Türkmənistanla Azərbaycan arasında siyasi, diplomatik, iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə sıx əlaqələrin qurulduğunu, yüksəksəviyyəli təmasların, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin uğurlu inkişafında mühüm rol oynadığını vurğulayan Sərdar Berdiməhəmmədov ötən il türkmən xalqının Milli Liderinin Azərbaycana, Prezident İlham Əliyevin isə Türkmənistana səfərlərini xatırladaraq, bu görüşlərin siyasi dialoqun, iqtisadi tərəfdaşlığın və humanitar əməkdaşlığın inkişafı üçün yeni istiqamətlər müəyyənləşdirdiyini deyib.

Sərdar Berdiməhəmmədov beynəlxalq arenada, həmçinin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və MDB çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Ali qonaq Azərbaycanın Türkmənistanın neytral xarici siyasətinə, sülh və davamlı inkişaf naminə irəli sürdüyü beynəlxalq təşəbbüslərə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini deyərək, eyni zamanda, Türkmənistanın da Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini dəstəklədiyini qeyd edib, bu ənənənin gələcəkdə də davam etdiriləcəyini bildirib.

Xəzər dənizi ilə bağlı əməkdaşlığa toxunan Türkmənistan Prezidenti təhlükəsizlik, iqtisadiyyat, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində birgə fəaliyyətin hər iki ölkə üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Bu xüsusda Türkmənistanın Xəzər dənizi məsələlərinə dair yüksəksəviyyəli görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini, həmçinin Xəzər Ekoloji Təşəbbüsünün irəlilədilməsi istiqamətində Azərbaycanın dəstəyinə ümid bəslədiyini bildirib.

Prezident iqtisadi-ticari əməkdaşlığın ikitərəfli münasibətlərin əsas istiqamətlərindən biri olduğunu deyərək, ticarət dövriyyəsində müsbət dinamikanı yüksək qiymətləndirib. Ali qonaq ölkələrimiz arasında mövcud potensialın daha da səmərəli reallaşdırılması üçün İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinin gücləndirilməsinin vacibliyinə toxunub.

Nəqliyyat-tranzit sahəsini əməkdaşlığın strateji istiqamətlərindən biri kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov Türkmənistanın və Azərbaycanın əlverişli coğrafi mövqeyinin beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı baxımından mühüm üstünlüklər yaratdığını deyib. Bu məqsədlə Türkmənistan-Azərbaycan Nəqliyyat, Tranzit və Logistika Komissiyasının fəaliyyətinin daha da fəallaşdırılmasını təklif edib.

Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə nəqliyyat dəhlizini uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov vurğulayıb ki, ölkələrimiz, həmçinin Türkmənistan-Azərbaycan-Gürcüstan-Rumıniya marşrutu üzrə Xəzər dənizi-Qara dəniz nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünü dəstəkləyir. Ali qonaq Xəzər və Qara dəniz regionlarının birləşdirilməsinin iqtisadi, ticarət və investisiya əməkdaşlığının inkişafı üçün yaxşı imkanlar açdığını deyib.

Türkmənistan Prezidenti, həmçinin neft-qaz, kimya, tekstil sənayesi və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu vurğulayıb. Sərdar Berdiməhəmmədov ölkələrimiz arasında təhsil, elm, mədəniyyət və incəsənət sahələrində fəal qarşılıqlı fəaliyyətin davam etdiyini vurğulayıb. Bu xüsusda qarşılıqlı Mədəniyyət Günlərinin, festivalların, sərgilərin və digər tədbirlərin keçirilməsinin xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə töhfə verdiyini qeyd edib.

Ali qonaq hazırda həyata keçirilən mühüm mənəvi layihələrdən birinə - Füzulidə məscid tikintisinə də toxunaraq, bu təşəbbüsün xalqlarımız arasında dostluğun və qardaşlığın rəmzi olduğunu qeyd edib.

Türkmənistan Prezidenti səfərinin ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsində mühüm mərhələ olacağına əminliyini bildirib, dövlətimizin başçısına fəaliyyətində yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və əmin-amanlıq arzulayıb.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iştirakı ilə “Dostlug” neftdaşıyan tankerinin onlayn formatda hədiyyə olunması mərasimi keçirilib.

Daha sonra Azərbaycan ilə Türkmənistan arasında imzalanmış sənədlərin Prezident İlham Əliyevin və Prezident Sərdar Berdiməhəmmədovun iştirakı ilə mübadiləsi mərasimi olub. Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov prezidentlərin Birgə Bəyanatını imzalayıblar. İki ölkənin müvafiq qurumları arasında sənədlər imzalanıb.



Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bu səfərin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Dövlət başçısı deyib ki, bu gün bir çox məsələlər üzrə ətraflı fikir mübadiləsi aparılıb, konkret tapşırıqlar verilib: “Əminəm ki, gələn ay Türkmənistanda keçiriləcək Hökumətlərarası Komissiya çərçivəsində bu gün verdiyimiz tapşırıqlar həmin vaxta qədər hərtərəfli işlənib hazırlanacaq və biz yeni birgə problemlərin həlli, yeni layihələrin reallaşdırılması mərhələsinə keçəcəyik. Münasibətlərimiz möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub. Biz müntəzəm olaraq yaradıcı kollektivlərin çıxışlarını təşkil edirik. Elə bu yaxınlarda, bu ayın əvvəlində həm Aşqabadda, həm də Arkadağda Azərbaycan Mədəniyyəti Günləri keçirildi. Keçən il isə Türkmənistanın mədəniyyət xadimləri həm Bakıda, həm də Gəncədə keçirilən Mədəniyyət Günlərində bizi ziyarət etdilər”.

Prezident vurğulayıb ki, Bakı və Aşqabad Arkadağ və Füzuli kimi, qardaş şəhərlərdir. “Bütün bunlar bizim birliyimizin nümayişidir. Əməkdaşlığımızı konkret məzmunla zənginləşdirməyə və qarşılıqlı fəaliyyətimizi dərinləşdirməyə çalışırıq. Həmçinin Türkmənistan tərəfinə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv qəbul edilməsində fəal dəstəyinə görə bir daha təşəkkürümü bildirmək istərdim. Mən buna tarixi hadisə kimi baxıram, çünki coğrafi olaraq Mərkəzi Asiyanın bir hissəsi olmasaq da, mədəni və tarixi əlaqələrimiz, həmçinin bu gün regional qarşılıqlı əlaqə və nəqliyyat-logistika problemləri ilə bağlı həll etdiyimiz konkret məsələlər təbii olaraq böyük Mərkəzi Asiyanın vahid geosiyasi və geoiqtisadi bölgə kimi qəbul edilməsi üçün ilkin şərtlər yaradır. Təbii ki, biz ilk gündən çoxtərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərməyə başladıq”, - deyən Prezident bildirib ki, müzakirlərdə nəqliyyat-logistika sahəsi haqqında da çox danışılıb: “Təbii ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq artıq uzunmüddətli xarakter daşıyır, hətta deyərdim ki, bu, təkcə bizim üçün deyil, təkcə qonşularımız üçün deyil, həm də geniş bir coğrafiya üçün strateji əhəmiyyətə malikdir. Çünki bu gün dünyada öz aralarında əməkdaşlıq edən ölkələri birləşdirən çox etibarlı, təhlükəsiz nəqliyyat marşrutları o qədər də çox deyil. Bu, böyük nailiyyətdir. Belə olan halda nəqliyyat və logistika layihələrini siyasi qarşılıqlı fəaliyyətdən təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyil. Siyasi qarşılıqlı fəaliyyət olmasaydı, heç bir coğrafi şərait səylərimizi birləşdirməyə imkan verməzdi. Biz isə həm birgə səylərimiz nəticəsində artıq artan yük axınlarını daha da artırmaq, həm də üçüncü ölkələrdən yükdaşımaları cəlb etmək üçün nəqliyyat və logistika sektorundakı fəaliyyətimizi daha da əlaqələndirmək barədə razılığa gəldik. Buna görə də bu sahə təbii ki, həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı fəaliyyətimizin prioriteti olacaq”.

Qeyd edilib ki, Türkmənistan və Azərbaycan geniş faydalı qazıntılara və enerji ehtiyatlarına malik iki ölkədir. Belə olan halda biz səylərimizi birləşdirmək üzrə əməkdaşlıq etmək niyyətindəyik. Dövlət başçısı deyib ki, uzun illər ərzində dəfələrlə Türkmənistana səfər edib və qardaş ölkəmizin davamlı inkişafına, şəhərlərin necə yaxşılaşdığına, infrastrukturun, o cümlədən turizmin necə qurulduğuna həmişə əmin olub. “Bütün bunlar rəhbərliyin müdrikliyindən və milli maraqların prioritet olmasından xəbər verir. Biz, dostlarınız və qardaşlarınız olaraq, beynəlxalq arena da daxil olmaqla, uğurlarınıza həmişə sevinirik və artıq dünyada geniş ictimai dəstək qazanmış Türkmənistanın neytrallıq siyasətini həmişə dəstəkləmişik və dəstəkləməyə davam edəcəyik”, - deyə Prezident İlham Əliyev vurğulayıb.



Sonra bəyanatla çıxış edən Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov səmimi qəbula, qonaqpərvərliyə və birgə iş üçün yaradılan gözəl şəraitə görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirib, təkbətək və geniş tərkibdə görüşlər zamanı ikitərəfli münasibətlərimizin hazırkı vəziyyətinin və perspektivlərinin müzakirə olunduğunu deyib. İkitərəfli əməkdaşlığın hazırkı səviyyəsinin yüksək qiymətləndirildiyini qeyd edən ali qonaq ölkələrimiz arasında münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı prinsiplər əsasında dinamik və ardıcıl şəkildə inkişaf etdiyini məmnunluqla vurğulayıb.

“İki ölkənin nüfuzlu beynəlxalq və regional təşkilatlar çərçivəsində fəal əməkdaşlığı davam etdirməyə hazır olduğu təsdiqləndi. Həmçinin Türkmənistanla Azərbaycan Respublikası arasında sıx qarşılıqlı fəaliyyət Xəzər dənizində beştərəfli əməkdaşlıq çərçivəsində davam etdiriləcək”, - deyən Sərdar Berdiməhəmmədov iqtisadi-ticari əməkdaşlığın da ətraflı müzakirə olunduğunu bildirib. Energetika, nəqliyyat, kimya, tekstil sənayeləri və bir sıra digər sahələrin prioritet istiqamətlər kimi müəyyənləşdirildiyini qeyd edən Türkmənistan Prezidenti ölkələrimizin ərazilərindən Şərq-Qərb xətti üzrə nəqliyyat və tranzit dəhlizlərinin yaradılmasında sıx əməkdaşlıq etmək barədə razılığın əldə olunduğunu vurğulayıb: “Nümayəndə heyətimiz bugünkü görüşün nəticələrini yüksək qiymətləndirir. Görüşün yekunlarına dair ikitərəfli mühüm sənədlər zərfi imzalandı. Türkmənistan və Azərbaycan Respublikası arasında əməkdaşlıq bütün əsas sahələr üzrə inkişaf edəcək. Bu, ölkələrimizin və xalqlarımızın uzunmüddətli maraqlarına cavab verir”, - deyə Sərdar Berdiməhəmmədov vurğuladı.

İkitərəfli əlaqələrimizin möhkəmləndirilməsinə Azərbaycan Prezidentinin böyük şəxsi töhfəsini xüsusi qeyd edən Türkmənistanın dövlət başçısı buna görə minnətdarlığını bildirdi. “Dostlug” neft tankerinin hədiyyə olunmasına görə də təşəkkür edən Sərdar Berdiməhəmmədov bunu ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin rəmzi kimi qəbul etdiklərini vurğulayıb, bu tankerin ölkələrimizin tərəqqisinə töhfə verəcəyinə və uğurlu əməkdaşlığımızın daha bir təzahürü olacağına əminliyini ifadə edib.

“Yekun olaraq qeyd etmək istərdim ki, Azərbaycan Respublikası tərəqqi və çiçəklənmə yolu ilə inamla irəliləyir”, - deyən ali qonaq qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıb.

# Azərbaycan ilə İordaniya arasında münasibətlər uğurla inkişaf edir

## Prezident İlham Əliyev İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla İordaniya arasında əlaqələrin dostluq və qardaşlıq üzərində qurulduğunu deyərək, ölkələrimizin hər zaman bir-birinə qarşılıqlı dəstək nümayiş etdirdiyini vurğulayıb, siyasi, iqtisadi, humanitar, parlamentlərarası əlaqələr və digər sahələrdə gələcəkdə əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini bildirib.

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçiriləcək 20-ci Sessiyasında Mazen Torki Saud Əl-Qadinin iştirak etməsinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev onun bu səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyini vurğulayıb, eyni zamanda, ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün də yaxşı imkan yaratdığını deyib.

Mazen Torki Saud Əl-Qadi İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş edib. Dövlətimizin başçısı Kral II Abdullah ibn Al Hüseyni ölkəmizə səfərə dəvət edib.





Qəbula və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən qonaq bunu Azərbaycanla İordaniya arasında mövcud dostluq və qardaşlıq münasibətlərinin göstəricisi kimi dəyərləndirib. O, Azərbaycan Prezidentinin və İordaniya Kralının siyasi iradəsi nəticəsində ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etməsini məmnunluqla vurğulayıb.

Qonaq Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində bu gün Azərbaycanın gözəl və təhlükəsiz ölkəyə çevrildiyini deyib. O, həmçinin vurğulayıb ki, Azərbaycanda mövcud olan sıx xalq-iqtidar birliyi dövlətimizin başçısının həyata keçirdiyi siyasət sayəsində ölkədə ictimai ədalətin təmin edilməsindən xəbər verir.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa, həmçinin ərəb və İslam dünyasını narahat edən məsələlərə həmişə böyük diqqətlə yanaşdığını, İslam həmrəyliyini daim dəstəklədiyini vurğulayan Mazen Torki Saud Əl-Qadi ölkəmizin Fələstin məsələsində tutduğu birmənalı və ədalətli mövqeyin yüksək qiymətləndirildiyini deyib.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi münasibətilə bir daha təbriklərini çatdıran qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını vurğulayıb.

Mazen Torki Saud Əl-Qadi, həmçinin Bakı şəhərinin gözəlliyinin və təmizliyinin onda zəngin təəssürat yaratdığını qeyd edib.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı öz növbəsində Kral II Abdullah ibn Al Hüseynin rəhbərliyi ilə İordaniyanın da uğurla inkişaf etdiyini deyib.

Azərbaycanın İslam həmrəyliyinə daim dəstək nümayiş etdirdiyini vurğulayan Prezident İlham Əliyev Fələstin məsələsində ölkəmizin Əl-Qüds Əl-Şərif paytaxt olmaqla iki dövlət həll yolunu daim dəstəklədiyini qeyd edib.

Görüşdə əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıld.b

# Türkmənistan Prezidenti Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib









Azərbaycanda dövlət səfərində olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib. AZƏRTAC xəbər verir ki, Türkmənistan Prezidenti Ulu Öndərin məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb.

Daha sonra Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Bakıda Zəfər parkını ziyarət edib. Türkmənistan Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoyub. Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Bildirilib ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

# Bakı növbəti beynəlxalq tədbirə ev sahibliyi edir

## İƏT Parlament İttifaqı Konfransının 20-ci Sessiyası keçirilir



Azərbaycan Milli Məclisin ev sahibliyi ilə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası öz işinə başlayıb. 22-25 iyun tarixlərini əhatə edəcək “Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi” mövzusunda baş tutacaq sessiyaya 40-dan çox ölkənin parlament nümayəndə heyəti, 10-dan çox ölkə spikeri və 10 beynəlxalq təşkilatın nümayəndələri qatılır. Tədbirdə, təxminən 400 nəfər iştirak edir.

Tədbir çərçivəsində təşkilatın Baş Komitəsinin, İcraedici komitəsinin, Baş Katiblər Assosiasiyasının, Siyasi məsələlər və beynəlxalq əlaqələr, İqtisadi məsələlər və ətraf mühit, Hüquqi və mədəni, sivilizasiyalar və dinlərarası dialoq məsələləri, İnsan hüquqları, qadın və ailə məsələləri komitələrinin, həmçinin qurumun digər strukturlarının iclaslarının keçirilməsi nəzərdə tutulur. İlk gündə təşkilatın İcraedici Komitəsinin 56-cı iclası keçirilib. Tədbirdə İƏT-ə üzv dövlətlərin parlament nümayəndə heyətlərinin rəhbərləri, üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

İƏT Parlament İttifaqının Baş katibi Muhammed Xurayçi Niyass açılış nitqində tədbirin əhəmiyyətindən bəhs edib. O, üzv ölkələr arasında parlament əməkdaşlığının gücləndirilməsinin və birgə təşəbbüslərin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin rəhbəri Rafael Hüseynov isə bildirib ki, təşkilatın yaradılmasına rəvac verən və ölkələri bu təsisat ətrafında birləşdirən fundamental şərtlər əvvəldən bəri dəyişməz olaraq qalır. Bunlar bir yerdə olmaq və ölkələrimizi, dövlətlərimizi, xalqlarımızı narahat edən və düşündürən suallara kollektiv şəkildə cavab tapmaqdır.

İclasda İƏTPİ Konfransının 20-ci sessiyasının gündəliyi, tədbirin proqramı və digər təşkilati məsələlər nəzərdən keçirilib.

Həmçinin təşkilatın Baş Katiblər Assosiasiyasının 7-ci iclası keçirilib. İclasda Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev gündəlikdəki məsələlər barədə məlumat verib. O vurğulayıb ki, parlamentlərin istifadə etdiyi bir çox alət və vasitələr artıq zamanın tələblərinə cavab vermir. “Qlobal dünyada parlamentlərin fəaliyyəti müasir beynəlxalq təcrübənin yeniliklərinə əsaslanmalıdır. Alətlərin daha əlçatan olması, görülən tədbirlərin isə daha adekvat və səmərəli şəkildə həyata keçirilməsi vacibdir. Rəqəmsal, ekoloji və digər sahələrdə baş verən yeniliklər parlamentlərin fəaliyyətinə də öz təsirini göstərib. Bu səbəbdən müasir fəaliyyət modelləri daim zənginləşdirilməli və təkmilləşdirilməlidir”.



Fərid Hacıyev Milli Məclisin bu istiqamətdə bir sıra innovativ həllərin tətbiqinə nail olduğuna diqqət çəkib. O əlavə edib ki, hazırda da bu sahədə ardıcıl və ciddi işlər görülür.

İƏT Parlament İttifaqının Baş katibi Muhammed Xurayçi Niyass İslam dünyasının hazırda siyasi, iqtisadi və humanitar böhranların bir-birinə qarışdığı, təhlükəsizlik, sabitlik və dayanıqlı inkişafla bağlı çağırışların artdığı həssas bir mərhələdən keçdiyini xatırladıb. Onun sözlərinə görə, bu vəziyyət hər kəsin üzərinə müştərək parlament fəaliyyətini gücləndirmək, uğurlu təcrübə və bilikləri bölüşmək, xalqlarımızın istək və ümidlərinə uyğun olaraq institusional iş alətlərini təkmilləşdirmək üçün ikiqat məsuliyyət qoyur.



İclasda çıxış edənlər parlament katiblikləri arasında əməkdaşlığın gücləndirilməsinin, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsinin və qanunvericilik orqanlarının institusional potensialının artırılmasının əhəmiyyətindən danışıblar.

İclasın sonunda Assosiasiyanın fəaliyyəti ilə bağlı təşkilati məsələlərə baxılıb, gələcək əməkdaşlıq istiqamətləri və növbəti dövr üçün fəaliyyət prioritetləri müəyyənləşdirilib.

İƏT-in üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası çərçivəsində Müsəlman Qadın Parlamentarilərinin 13-cü Konfransı da baş tutub. Tədbirdə çıxış edən Baş katibin müavini Əli Asghar Məhammadi Sijani bildirib ki, Bakı hər zaman mühüm dialoqların və beynəlxalq tədbirlərin keçirildiyi məkan olub. Müsəlman Qadın Parlamentarilərinin Konfransının da Bakıda təşkil edilməsi qadın parlamentarilərin siyasi və ictimai həyatda oynadığı mühüm rolu bir daha nümayiş etdirir.

Milli Məclisin deputatı Nigar Məmmədova deyib ki, Azərbaycan çoxsaylı beynəlxalq platformalarda müsəlman dövlətlərini birliyə çağırır. Bu tədbir də ortaq dəyərlərimizə, qarşılıqlı hörmətə və parlamentlərarası əməkdaşlığa sadiqliyimizin bariz ifadəsidir. Müsəlman qadın parlamentarilər cəmiyyətlərimizin inkişafında, qanunvericilik təşəbbüslərinin formalaşdırılmasında, sosial rifahın gücləndirilməsində, sülhün təşviqində və dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında mühüm rol oynayırlar. Bugünkü müzakirələr qadınların münaqişələrin həllində iştirakının artırılması, münaqişələrdən zərər çəkmiş müsəlman qadın və uşaqların müdafiəsi, eləcə də parlamentlərimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir”, - deyə deputat qeyd edib.

*Nardar BAYRAMLI*

# WUF13 UN-Habitat üçün mühüm mərhələ oldu



## BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Prezident İlham Əliyevə təşəkkür edib

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF 13) uğurlu təşkilinə görə Prezident İlham Əliyevə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, Anaklaudia Rossbax bununla bağlı dövlətimizin başçına ünvanlandığı məktubunda qeyd edib: "WUF13-ə misilsiz uğurla ev sahibliyi etdiyinizə görə BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) adından Sizə və hökumətinizə ən dərin minnətdarlığımı bildirirəm. WUF13 dünya miqyasında mənzil icması və UN-Habitat üçün mühüm mərhələ oldu. Forum dünya üzrə rekord sayda iştirakçını bir araya gətirdi. Onlar davamlı şəhərsalmanın inkişafında irəliləyişə sadiq olan milli və yerli hökumətləri, vətəndaş cəmiyyətini, akademik dairələri, özəl sektoru, gənclər qruplarını, beynəlxalq təşkilatları və digər maraqlı tərəfləri təmsil edirdilər.

WUF13, həmçinin Şərqi Avropa və Mərkəzi Asiya regionunda keçirilən ilk Ümumdünya Şəhərsalma Forumu Sessiyası kimi tarixi əhəmiyyət kəsb etdi. WUF13-ün uğurla keçirilməsi Azərbaycan Hökumətinin və xalqının güclü öhdəliyini, rəhbərliyini və qonaqpərvərliyini əks etdirir. UN-Habitat ilə Azərbaycan arasında sıx əməkdaşlıq Sessiyanın bütün substantiv, operativ və logistik sahələrdə səmərəli şəkildə hazırlanmasını və təşkilini təmin etmək baxımından həlledici rol oynadı.

WUF13 bir sıra iddialı nəticələrlə yadda qaldı, o cümlədən "Bakı Fəaliyyətə Çağırış" və Nazirlər Görüşünün yekun sənədi (Sədrlərin Xülasəsi), həmçinin Ümumdünya Şəhərsalma Forumunun tarixində ən böyük "Urban Expo" sərgisi təşkil etdi. WUF13, həmçinin WUF Akademiyası, Biznes və İnnovasiya Mərkəzi və Təcrübə Mərkəzi kimi bir çox yeni və innovativ təşəbbüslər təqdim etdi ki, bu da WUF-un zəngin dialoq, bilik mübadiləsi, tərəfdaşlıqlar və praktiki şəhərsalma həlləri platforması kimi mövqeyini daha da gücləndirdi.

WUF13-ün bu nəticələri və təcrübəsi qlobal əməkdaşlığın gücləndirilməsinə, Yeni Şəhər Gündəliyinin və 11-ci Dayanıqlı İnkişaf Məqsədinin icrasının irəlilədilməsinə yol açdı və çox vacib töhfə verdi.

WUF13, həmçinin mühüm irslər qoydu. Bunlara gələcək Ümumdünya Şəhərsalma Forumu sessiyaları üçün operativ bələdçinin hazırlanmasına töhfə verəcək "WUF13 Bakı Standartları", habelə Bakı Şəhərsalma Mükafatı daxildir".

# Ələt İqtisadi Zonası beynəlxalq logistika qovşağı kimi formalaşır

Ələt İqtisadi Zonasının (ƏİZ) yaradılması Azərbaycanın qabaqcıl dünya təcrübəsinin, innovasiyaların tətbiqi ilə səciyyələnən yeni sənaye inkişafı mərhələsinə keçid etdiyinə daha bir nümunədir. ƏİZ-nın təməli 1 iyul 2021-ci il tarixində Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Onun yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir. Azad İqtisadi Zona 850 hektar ərazidə yaradılır.

Bu günlərdə Bakıda Azərbaycan Amerika Ticarət Palatası (AmCham Azerbaijan) tərəfindən təşkil olunan "TECHNOVATION: Davamlı İqtisadi Transformasiya üçün Elm və İnnovasiya Forumunda Ələt İqtisadi Zonasının perspektivləri ilə bağlı önəmli fikirlər ifadə olunub. Mütəxəssislərin qənaətinə görə, müasir infrastruktur təminatı, beynəlxalq nəqliyyat marşrutlarına yaxınlıq, ölkənin əlverişli investisiya mühiti, rezidentlər üçün çoxlu sayda güzəştlərin nəzərdə tutulması, mükəmməl hüquqi baza Ələt İqtisadi Zonasının cəlbediciliyini artıran amillərdir. Ümumi qənaət belədir ki, Azad İqtisadi Zonanın tam gücü ilə fəaliyyətə başlaması ölkədə qeyri-neft iqtisadiyyatının inkişafına və bu əsasda "Made in Azerbaijan" brendi ilə məhsul ixracına, həmçinin məşğulluğun yüksəlməsinə güclü impuls verəcək.

## Əlverişli logistika - investorlar üçün əlavə imkanlar

Hazırda dünyada investorları cəlb etmək üçün azad iqtisadi zonalar arasında kəskin rəqabət olduğu heç kəsə sirr deyil. İnvestor öz sərmayələrini yönəltməkdən öncə ciddi axtarışlar aparır və seçimində daha üsün şərtləri təmin edən iqtisadi zonalara üstünlük verir. Burada bir sıra digər şərtlərlə yanaşı, əlverişli logistika ən önəmli amillərdən biri qismində çıxış edir. Əlverişli logistika təchizatı asanlaşdırır, zaman itkisinin və izafi xərclərin qarşısını alır ki, bu da son nəticədə özünü hazır məhsulun maya dəyərində göstərir.

Azad İqtisadi Zona üçün yer seçilərkən bu kimi amillərin nəzərə alındığını bildirən Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov Bakıda keçirilən"TECHNOVATION: Davamlı İqtisadi Transformasiya üçün Elm və İnnovasiya Forumunda bildirib ki, ƏİZ logistika qovşağı kimi formalaşır. "Biz yalnız qonşu ölkələrdə deyil, daha geniş coğrafiyada fəaliyyət göstərən istənilən azad iqtisadi zonadan daha cəlbedici olmağa borcluyuq. Rəqabətədavamlı olaq ki, investorlar məhz Ələt Azad İqtisadi Zonasını seçsinlər. Məhz buna görə də Ələt Azad İqtisadi Zonası üçün xüsusi məkan seçilib. Bu ərazi beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində - Şərq-Qərb və Şimal-Cənub marşrutlarının qovşağında, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yerləşir. Bu isə bizə investorlar və müştərilər üçün su, dəmir yolu və dəniz nəqliyyatı vasitəsilə geniş logistik xidmətlər təqdim etmək imkanı yaradır", - deyə qurum rəsmisi qeyd edib.

Bundan başqa, sədr deyib ki, Ələt Azad İqtisadi Zonasında yüksək texnologiyalar üçün yeni logistika-infrastruktur modeli formalaşdırılır. Yüksək texnologiya sənayesinin inkişafı üçün istehsal sahələrinə yaxın ərazidə karqo hava limanının mövcudluğu xüsusi əhəmiyyət daşıyır. Bu məqsədlə Ələt İqtisadi Zonası ərazisində karqo hava limanının tikintisi üçün yerli aviadaşıyıcı "Silk Way Airlines" şirkəti ilə razılıq əldə edilib. Bu, təkcə Azərbaycanda deyil, ümumilikdə azad iqtisadi zona ərazisində inşa edilən ilk hava limanı olacaq. Onun tikintisinə 2024-cü ilin mart ayında başlanılıb və gələn il hava limanının tam istifadəyə verilməsi planlaşdırılır. Bu infrastruktur yüksək texnologiya şirkətlərinin Ələt Azad İqtisadi Zonasında öz bizneslərini qurması üçün əlavə imkanlar yaradacaq.

Ələt İqtisadi Zonasının digər bir üstünlüyü burada investorlara zəruri infrastruktur və kommunal xidmətlərlə tam təmin olunmuş sənaye torpaq sahələrinin təqdim edilməsidir. Əlbəttə, tələbin hələ formalaşmadığı şəraitdə infrastruktur qurulmasına və kommunal xidmətlərin təmin olunmasına qabaqcadan vəsaitlər yönəldilməsi asan məsələ deyil. Bəlkə, investorlar gəlməyəcəklər və yaxud daha gec gələcəklər? Belə olan halda vəsaitlərin səmərəsiz xərcləndiyi qənaəti yarana bilər. Ancaq bu, Azərbaycan dövlətinin iradəsidir, ölkədə yeni sənaye quruculuğuna, qeyri-neft iqtisadiyyatının inkişafına həssas yanaşmasının ifadəsidir. Burada ilk növbədə potensial investorlar üçün daha rəqabətli və cəlbedici mühitin təmin edilməsi əsas şərt kimi götürülür. Başqa yolla investorları cəlb etmək sadəcə mümkün deyil. Biz dünya praktikasında da bunun şahidi oluruq. Xüsusilə də İrlandiyanın "Şennon" Azad İqtisadi Zonası və Sinqapurun "Curonq" təcrübələri bu baxımdan mühüm nümunədir.

## Möhkəm hüquqi baza və sərmayəçilər üçün proqnozlaşdırıla bilən mühit

Qurum rəsmisinin sözlərinə görə, həmçinin Ələt İqtisadi Zonasında hüquqi baza investorlar üçün sabit və proqnozlaşdırıla bilən mühit yaradır. Bununla bağlı fikirlərini ifadə edən V.Ələsgərov vurğulayıb: "Zonanın cəlbediciliyinin ən mühüm amillərindən biri onun hüquqi bazasıdır. Bu zona "Ələt Azad İqtisadi Zonası haqqında" qanuna əsaslanır. Həmin qanun digər qanunlarından üstün hüquqi qüvvəyə ("prevailing law status") malikdir. Azad iqtisadi zonaların tarixində belə xüsusi hüquqi rejimlərin tətbiqi yeni deyil. Oxşar yanaşmalar 1959-cu ildə İrlandiyada, daha sonra Sinqapurda, Çində və digər ölkələrdə tətbiq olunub. Bu cür üstün qanunvericilik çərçivəsinin mövcudluğu investisiya mühiti üçün həlledici əhəmiyyət daşıyır".

V.Ələsgərov əlavə edib ki, bu qanuna əsasən, ümumi daxili qanunvericilik Ələt İqtisadi Zonasına və onun rezidentlərinə şamil edilmir. Zonanın ərazisində bütün münasibətlər yalnız bəhs olunan qanun və zonanın daxili qaydaları ilə tənzimlənir. Məsələn, planlaşdırma-tikinti icazələri üzrə prosedurlar xüsusi olaraq sadələşdirilib. Məlumdur ki, bir çox ölkələrdə tikinti və planlaşdırma icazələrinin alınması aylarla çəkən mürəkkəb prosesdir. Ələt İqtisadi Zonasında isə, layihə sənədləri Avropa standartlarına ("European code") uyğun hazırlandığı halda, icazələrin verilməsi və tikintiyə başlanması cəmi 3-5 gün ərzində həyata keçirilə bilər.







## ƏİZ-da günəş panelləri istehsalı müəssisəsinin yaradılması böyük perspektiv vəd edir

Ələt İqtisadi Zonası Azərbaycanın müasirləşmə siyasətini aydın şəkildə əks etdirir. Belə ki, burada innovativ tətbiqlər nəzərdə tutan və iqtisadi transformasiyaların meydana çıxardığı çağırışlara uyğun məhsul istehsalını hədəfləyən investorlara böyük məmnuniyyətlə "yaşıl işıq" yandırılır. Bu baxımdan ƏİZ-nın ərazisində Çinin "Sichuan Sunsync Photovoltaic Technology Co. Ltd." şirkətinin iştirakı ilə yaradılacaq günəş panellərinin istehsalı müəssisəsi böyük perspektiv vəd edir.

Zavodun inşasına yaxın həftələrdə başlanılacağı gözlənilir. V.Ələsgərovun sözlərinə görə, zavodun ilk mərhələsində ildə təxminən 3 QVt gücündə günəş panelləri istehsal ediləcək, sonrakı mərhələdə isə istehsal gücünün 10 QVt-a çatdırılması planlaşdırılır. Layihənin reallaşması günəş enerjisinin maya dəyərinin azalmasına, bərpaolunan enerji mənbələrinə çıxışın genişlənməsinə və elektrik enerjisinin saxlanılması üzrə həllərin inkişafına imkan yaradacaq.

Günəş panelləri müəssisədə buraxılacaq yeganə məhsul olmayacaq. Paralel şəkildə, külək energetikası üçün komponentlərin, xüsusilə turbin pərləri və qüllələrinin yerli istehsalının təşviqi müzakirə olunur. Bu məhsulların xaricdən daşınması mürəkkəb və bahalı prosesdir. Valeh Ələsgərov qeyd edib ki, enerji sistemində böyük həcmdə külək və günəş generasiyasını səmərəli inteqrasiya etmək üçün elektrik enerjisinin saxlanılması üzrə həllər vacibdir.

Xatırladaq ki, 2025-ci il sentyabrın 9-da Baş nazirin müavini və Azərbaycan-Çin hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə Çində imzalanan investisiya sazişi Ələt İqtisadi Zonasında müasir günəş paneli istehsal kompleksinin yaradılmasını nəzərdə tutur. Layihəyə əsasən, 23 hektar ərazini əhatə edən sənaye zonasında üç müasir istehsal obyekti tikiləcək.

V.Ələsgərov bildirib ki, Ələt İqtisadi Zonasında günəş panelləri istehsalı üçün tikilən müəssisədə yüzlərlə Azərbaycan vətəndaşı işləyəcək və onlar yeni texnologiyaları, bilgiləri və təcrübəni mənimsəyəcəklər. Bu layihə respublika iqtisadiyyatı üçün də çox böyük töhfə olacaq. Müəssisə Azərbaycanı bu sahədə regionun qabaqcıl ölkəsinə çevirəcək. "Azərbaycan günəş panellərinin və müvafiq avadanlığın ixracı sahəsində regionun ən böyük, ən uğurlu ölkəsi olacaq. Bu layihənin uğurlu icrası başqa şirkətləri, o cümlədən Çin şirkətlərini də Azərbaycana, ƏİZ-ə sərmaye yatırmağa təşviq edəcək. Çünki Çin şirkətləri ilk layihənin uğurunu gördükdən sonra onların ƏİZ-ə maraqları daha da artacaq", - deyə Valeh Ələsgərov bildirib.

Çin şirkəti tərəfindən yaradılacaq müəssisədə istehsal ediləcək günəş panelləri, eyni zamanda, şirkət tərəfindən Ələt Azad İqtisadi Zonasında inşa olunacaq Günəş Elektrik Stansiyasının tikintisində də istifadə ediləcək. Məhsulların əksər hissəsi qlobal bazarlara ixrac ediləcək ki, bu da Azərbaycanın bərpaolunan enerji istehsalı üzrə strateji mərkəz kimi mövqeyini daha da möhkəmləndirəcək.

## İxracyönümlü məhsul istehsalına üstünlük veriləcək

Əsas məqamlardan biri də ondan ibarətdir ki, ƏİZ daha çox dərəcədə ixrac mərkəzi kimi inkişaf etdirilir. Tələb belə qoyulur ki, ƏİZ-da istehsal olunan malların ən azı 75 faizi ölkədən ixrac edilməlidir. Bunun əsas səbəblərindən biri Ələt İqtisadi Zonasında fəaliyyət göstərən müəssisələrlə ölkə iqtisadiyyatının əsas sektorundakı yerli şirkətlər arasında qeyri-bərabər rəqabətin yaranmamasını təmin etməkdir. Çünki azad zonada fəaliyyət göstərən müəssisələr vergi və gömrük rüsumlarından azad olduqları üçün üstün rəqabət mövqeyinə malik olurlar və bu, yerli şirkətlər üçün ciddi çətinliklər yarada bilər. ƏİZ-da çalışacaq investorların qarşısında ixrac tələbi qoyulmaqla bu təhlükənin qarşısı alınacaq və yerli sahibkarlar qorunacaqlar.

Burada yaxşı nəticələr qazanan ölkələrin təcrübəsi nəzərə alınıb. V.Ələsgərov bildirib ki, yüksək əlavə dəyərli istehsal ölkələrin inkişafını sürətləndirir. "Bəzən yüksək əlavə dəyər yaradan, ixrac yönümlü istehsalla bağlı mövqeyimiz tənqid edilir. Lakin İrlandiya kimi ölkələrin təcrübəsi bu yanaşmanın nə qədər doğru olduğunu göstərir. Onlar 1959-cu ildə Şennon Azad İqtisadi Zonasını yaratdılar və bəyan etdilər ki, yüksək əlavə dəyər yaradan, ixracyönümlü istehsalla məşğul olan müəssisələri məmnuniyyətlə qəbul edirlər. Bu çərçivədə istehsal olunan məhsulların böyük hissəsi ixrac edilməli idi.

Bugünkü İrlandiya ilə 1960-cı illərin İrlandiyasını müqayisə etdikdə görürük ki, biznesin inkişafında məhz bu cür ixracyönümlü strategiya nəticəsində ölkə tamamilə fərqli bir səviyyəyə yüksəlib", - deyə qurum rəsmisi əlavə edib.

**Mübariz ABDULLAYEV**

# Aqrar və sənaye sektorları üçün yeni güzəştlər



## Bir sıra istehsal təyinatlı malların idxalı ƏDV-dən azad olunub

Nazirlər Kabineti (NK) yerli istehsalın təşviqinə dair mühüm qərarlar qəbul edib. NK-nın “Sənaye və texnologiyalar parklarının idarəedici təşkilatı və operatoru tərəfindən idxal edilən, əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunan texnika, texnoloji avadanlıq və qurğuların siyahısı”nın və “Sənaye və texnologiyalar parklarının rezidentləri tərəfindən idxal edilən, əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunan texnika, texnoloji avadanlıq və qurğuların siyahısı”nın təsdiq edilməsi haqqında qərarına əsasən, sənaye və texnologiyalar parklarının idarəedici təşkilatı və operatoru bir sıra malların idxalına görə, əlavə dəyər vergisindən (ƏDV) və gömrük rüsumlarından azad olunub.

Həmin mallar texnika, texnoloji avadanlıq və qurğuların siyahısına, NK-nın digəq qərarına əsasən, quşçuluq və arıçılıq üçün avadanlıqlar, o cümlədən bu sahələrdə istifadəsi nəzərdə tutulmuş laboratoriya avadanlıqları, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınlar, habelə kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatları ƏDV-dən azad edilib.

**Qeyri-neft sənayesinin inkişafına töhfə**

Sənaye parkları ölkəmizin iqtisadi imkanlarının daha da artırılması, qeyri-neft sektorunun davamlı inkişafına töhfə verəcək resursların tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılmasında mühüm əhəmiyyət daşıyır. Hazırda ölkəmizdə Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Qaradağ, Pirallahı, Hacıqabul, Mingəçevir, Ağdam, “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları fəaliyyət göstərir. Dövlət başçısının imzaladığı müvafiq fərmanlara əsasən, hazırda Naxçıvan və Qərbi Sənaye Parkları yaradılmaqdadır. Həmin sənaye parkları ölkəmizin iqtisadi imkanlarının daha da artması, qeyri-neft sektorunun davamlı inkişafı və qeyri-neft resurslarının tam hərəkətə gətirilməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə, bu hüquqi təşkildən sonra sənaye parklarının sayı 10-a çatmış olub və yeni parklar Azərbaycanın sənaye ixracına qoşulmaqla qeyri-neft sənayesinin inkişafına da mühüm töhfələr verəcək. Eləcə də Masallı, Neftçala, Sabirabad və Şərurda yerləşməklə 4 sənaye məhəlləsi fəaliyyət göstərir ki, bu da regionlarda sənaye potensiallarının səfərbər olunması, həmin bölgələrin inkişafında mühüm rol oynamaqdadır.

**Azad ərazilərdə sənayeləşməyə dəstək**

Qarabağ və Şərqi Zəngəzurda sayı daha da artan sənaye obyektləri, ələlxüsus da sənaye parklarında yeni rezidentlərin fəaliyyətə başlaması isə bu bölgənin sürətli inkişafına və ümumilikdə ölkə iqtisadiyyatına reinteqrasiyasına imkan yaratmaqdadır. Hazırda Ağdam Sənaye Parkı və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında ümumilikdə investisiya kapitalı 350 milyon manatdan çox olan 40-dan reziden fəaliyyət göstərir. İndiyədək rezidentlər tərəfindən sənaye parklarına 90 milyon manatdan çox investisiya yatırılıb.



Bir müddət əvvəl “Baku International Tobacco” MMC-yə “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının rezidenti statusunun verilməsi parkın fəaliyyət sahəsini genişləndirib. Yeni rezident tərəfindən sənaye parkının ərazisində tütün məmulatlarının istehsalı layihəsinin həyata keçirilməsi nəzərdə tutulur. İnvestisiya dəyəri 47 milyon manat təşkil edən layihə çərçivəsində istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da planlaşdırılır. Təkcə bu sənaye parkında həyata keçirilən layihələr üzrə sahibkarlar tərəfindən indiyədək 48,3 milyon manatdan çox investisiya qoyulub, 130-dan artıq iş yeri yaradılıb.

**Sənaye sahəsinin inkişafı üçün yeni imkanlar**

Sənaye zonalarına daxil olan sənaye parkları və məhəllələri ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, innovativ və rəqabətqabiliyyətli sənayenin inkişafına, istehsal sahəsində iş yerlərinin artırılmasına yeni imkanlar açır. Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafını daha da artırmaqdır. Bu məqsədlə sənaye zonalarında rezidentlər üçün əlverişli biznes və investisiya mühiti yaradılıb. İnvestorların fəaliyyətinin təşviqi məqsədilə sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə bir sıra mühüm vergi güzəştlərindən yararlanır. Belə ki, onlar əmlak, torpaq və mənfəət vergilərindən azad edilir, həmçinin istehsal məqsədi ilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara 10 il müddətinə ƏDV və gömrük rüsumları üzrə azadolmalar tətbiq olunur.

“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda sənaye sahəsinin inkişafı prioritet olaraq müəyyənləşdirilib. Dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Sənədə əsasən, qeyri-neft/qaz sənayesi hər il orta hesabla 8,4 faiz artacaq, sənaye zonalarının qeyri-neft/qaz sənaye istehsalında payı 15 faiz, qeyri-neft/qaz sənaye ixracında payı isə 25 faiz olacaq. Dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahənin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaq. Bu isə öz növbəsində qeyri-neft sektorunun iqtisadiyyatımızın aparıcı artım mənbəyi kimi mövqeyinin möhkəmlənməsinə təkan verəcək.

**Vergi və gömrük güzəştləri kənd təsərrüfatının inkişafına stimul verir**

NK-nın aqrar sahəyə növbəti dəstəyi isə kənd təsərrüfatı sektorunda inkişafa əlavə imkanlar yarada biləcək amil kimi dəyərləndirilə bilər. Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, mənfəət, gəlir, ƏDV, sadələşdirilmiş və əmlak vergilərindən azaddırlar. Həmçinin kənd təsərrüfatı texnikası, gübrə və toxum idxalı gömrük rüsumlarından və ƏDV-dən azad olunur. Kənd təsərrüfatı üçün zəruri olan xammal və materialların güzəştli gömrük prosedurları ilə əhatə olunması da mühüm əhəmiyyət daşıyır. Bu, fermerlərə istehsal xərclərini əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. Müasir aqrar texnologiyaların, qurğuların, suvarma sistemlərinin və xüsusi ehtiyat hissələrinin ölkəyə idxalını təşviq edir, xammalın ölkə daxilində hazır və ya qablaşdırılmış məhsula çevrilməsini gücləndirir.

Ümumilikdə, vergi və gömrük təşviqləri aqrar biznesin rentabelliyini artırır və qida təhlükəsizliyini təmin edir.

*E.CƏFƏRLİ*

# Beynəlxalq birlik mina probleminin həllinə dəstək verməlidir

**Azərbaycan inkişaf hüququnun, habelə iqtisadi, sosial və mədəni hüquqlar da daxil olmaqla, insan hüquqlarının qorunması və təşviqinin demokratiyanın, sülhün və rifahın mərkəzində dayandığına inanır. Bu, Azərbaycanın Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin BMT-nin İnsan Hüquqları Şurasının 62-ci sessiyasında ali komissarın illik hesabatı üzrə interaktiv dialoq zamanı səsləndirilən bəyanatında öz əksini tapıb.**

## Bəyanatda çağırış edilib

Bəyanatda qeyd olunub ki, Cənubi Qafqaz hazırda qarşıdurmadan uzaq və əməkdaşlıq məkanına çevrilmək üçün tarixi bir şans əldə edib. Bunun faydaları artıq ortadadır. Azərbaycan təkcə yaxın qonşuluqda olan ölkələrə deyil, həm də regionun hüdudlarından çox-çox kənara yeni iqtisadi, ticarət və tranzit perspektivləri açıb və təklif edib. Sənəddə hökumətin əsas prioritetlərindən birinin çoxsaylı məcburi köçkünlərin öz evlərinə qayıtması ilə yanaşı, yenidənqurma və bərpa fəaliyyəti olduğu diqqətə çatdırılıb, geri qayıtmaq və ləyaqətli yaşayış hüququnun mühüm insan hüquqları olduğu bildirilib. Qeyd olunub ki, bu hüquqların reallaşdırılmasına, eləcə də minlərlə itkin düşmüş şəxsin şəxsiyyətinin müəyyənləşdirilməsinə mane olan amil geniş ərazilərdə külli miqdarda mina və partlamamış hərbi sursatların olmasıdır. Beynəlxalq birlik bu məsələyə laqeyd qalmamağa və həmrəylik nümayiş etdirməyə çağırılıb.



Bəyanatda, həmçinin Avropa İttifaqı daxilində etnik və dini azlıqlara təsir edən irqçilik və ayrı-seçkilik, islamofobiyanın artması və böyüyən sosial dözümsüzlük də daxil olmaqla, insan hüquqları sahəsində davam edən problemlərdən narahatlıq ifadə olunub. Bildirilib ki, miqrantlara və sığınacaq axtaran şəxslərə qarşı qeyri-bərabər rəftar, inteqrasiya qarşısındakı maneələr, habelə ləyaqət, müdafiə və hüquqlara bərabər çıxışla bağlı suallar doğuran təcrübələr barədə hesabatlar bizi narahat etməkdə davam edir. İnsan hüquqları ardıcıl şəkildə və ayrı-seçkiliyə yol verilmədən təşviq edilməli, səmərəli beynəlxalq əməkdaşlıq isə qarşılıqlı hörmətə, obyektivliyə və bərabər standartlara əsaslanmalıdır.

## Ölkə ərazisinin 13 faizindən çoxu mina ilə çirkləndirilib

Göründüyü kimi, bəyanatda əsas diqqətçəkən məqamlardan biri mina problemi ilə bağlıdır. Məlumdur ki, Azərbaycan mina təhlükəsinin ən ağır nəticələrini yaşayan ölkələrdən biridir. Ermənistan işğalçılıq siyasəti dövründə ərazilərimizə yüzminlərlə mina basdırıb. Respublikamız mina və müharibənin digər partlayıcı qalıqları ilə ən çox çirklənmiş ölkələr arasında ilk onluqdadır. Rəsmi məlumatlara görə, işğaldan azad olunmuş ərazilərdə təxminən 11 min 667 kvadratkilometr sahə mina və digər partlayıcı qalıqları ilə çirklənib. Bu, ölkə ərazisinin 13 faizindən çoxu deməkdir. Həmin ərazilərdə təxminən 1 milyondan çox minanın mövcud olduğu bildirilir. Son 30 il ərzində 3400-dən çox insan minaların və müharibənin partlayıcı qalıqlarının qurbanı olub. Təkcə 2020-ci ilin noyabr ayından bəri aralarında qadın və uşaqların da olduğu 427 şəxs mina partlayışlarının qurbanı olub, onlardan 73-ü həlak olub, 354 nəfəri isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb və bu rəqəm artmaqda davam edir.

Genişmiqyaslı mina çirklənməsi digər fəsadlarla yanaşı, iqtisadi dirçəliş, yenidənqurma və reabilitasiya səylərinə mane olur, eyni zamanda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) tam icrası üçün ciddi maneə törədir. Azərbaycan mina təmizləmə fəaliyyətini dayanıqlı inkişafın mühüm amili kimi təşviq və icra edir, yenidənqurmanı dəstəkləyir, icmaların dayanıqlılığı üçün kritik olan torpaqlara və resurslara çıxışı bərpa edir. Minatəmizləmə səylərinin davamlı və qalıcı inkişafla bağlılığını, eləcə də təmizlənmiş ərazilərin əhalinin rifahına, ölkənin tərəqqisinə və inkişafına mühüm təsirini nəzərə alaraq Azərbaycan humanitar mina təmizləməni rəsmən 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi elan edib.

## Dünya biganə qalmamalıdır!

Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil verməmişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda da basdırmasının məqsədi mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə, dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

Ölkəmiz beynəlxalq ictimaiyyəti mütəmadi olaraq Ermənistanın mina terroru barədə məlumatlandırır, müxtəlif platformalar çərçivəsində bu yöndə tədbirlər keçirir. Məqsəd beynəlxalq birliyin diqqətini problemin həllinə yönəltməkdir. Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirkləndirilib. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Bütün bunlarla yanaşı, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

*Nardar BAYRAMLI*

# Gömrük qanunvericiliyi təkmilləşdirilib

## Dəyişikliklər gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsində mühüm rol oynayacaq

Milli Məclis “Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsini üçüncü oxunuşda təsdiqləyib. Qanun layihəsi gömrük qanunvericiliyinin tətbiqi praktikasında ortaya çıxan məsələlərin tənzimlənməsi, gömrük fəaliyyətinin müasir dövrün tələbləri və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi, bu sahədə rəqəmsal həllərin tətbiqi, xarici ticarətin asanlaşdırılması, xarici ticarət fəaliyyəti iştirakçılarının hüquqlarının və maraqlarının qorunması məqsədilə, eləcə də Məcəllənin qəbulundan keçən müddət ərzində dünya iqtisadiyyatında baş verən dəyişikliklərin və inkişafın milli qanunvericilikdə əks etdirilməsi zərurəti nəzərə alınmaqla hazırlanıb.



Qeyd edilən prioritetlər nəzərə alınmaqla, Gömrük Məcəlləsinə dəyişikliklər “Normativ hüquqi aktlar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında”, “Fərdi məlumatlar haqqında” , “İnzibati icraat haqqında”, “Avtomobil nəqliyyatı haqqında”, “Qida təhlükəsizliyi haqqında” və digər qanunların müəddəaları ilə uzlaşdırılıb.

**İdxal-ixrac əməliyyatlarında yeni tarif və qeyri-tarif tənzimlənməsi**

Qanun layihəsi üzrə dəyişiklik və əlavələr gömrük qanunvericiliyinin əksər norma və müddəalarını əhatə edir. Layihənin qəbulu idxal-ixrac əməliyyatlarında müasir tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin daha geniş tətbiq olunmasında, Azərbaycan ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılmasında, həmin dəhlizlərə əlavə tranzit yük axınlarının cəlb edilməsində, yükdaşımaların keyfiyyətinin yüksəldilməsində, yüklərin çatdırılma müddətinin azaldılmasında, gömrük sistemində mövcud olan müasir texnologiya və avadanlıqdan istifadə etməklə, gömrük işi sahəsində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin daha da təkmilləşdirilməsində, gömrük nəzarətinin risk əsasında həyata keçirilməsində, beynəlxalq ticarət-təchizat zəncirinin fəaliyyətində təhlükəsizliyin təmin edilməsində, xarici ticarətin asanlaşdırılmasına şəraitin yaradılmasında, nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsində mühüm rol oynayacaq.

Qanun layihəsi, həmçinin məmur-vətəndaş münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsinə, gömrük nəzarəti və rəsmiləşdirilməsinə sərf olunan vaxt itkisinin aradan qaldırılmasına, ölkənin iqtisadi və milli təhlükəsizliyinin möhkəmləndirilməsinə, sosial-iqtisadi inkişafında gömrük sisteminin rolunun artırılmasına, gömrük tənzimləmə vasitələrinin beynəlxalq miqyasda qəbul edilən tənzimləmə vasitələrinə uyğunlaşdırılmasına və gömrük işi üzrə digər istiqamətlərdə fəaliyyətin təkmilləşdirilməsinə xidmət edəcək.

**“Birbaşa gömrük təmsilçiliyi”...**

Digər bir dəyişiklik institusional çərçivənin təkmilləşdirilməsi və xarici ticarət rejiminin asanlaşdırılması və gömrük qaydalarında optimallaşdırılmasının genişləndirilməsidir. “Birbaşa gömrük təmsilçiliyi” adlı mexanizmə əsasən, birbaşa gömrük təmsilçiliyi fiziki şəxslər tərəfindən təmsil edilən şəxsin verdiyi etibarnamə əsasında həyata keçiriləcək. Bu isə xarici ticarət iştirakçıları üçün əlavə imkanlar yaradacaq. Məlumdur ki, hazırda gömrük daşıyıcısı fəaliyyətini həyata keçirmək üçün lisenziya almış hüquqi şəxslər gömrük daşıyıcısı hesab edilir, fiziki şəxslər üçün məhduddiyyətlər var. Təklif olunan dəyişiklik isə bu sahədə bərabərliyi təmin edir və daşıyıcıya tələbin sadələşdirilməsini, gömrük əməliyyatları aparan daşıyıcıların və fiziki şəxslərin dairəsinin genişləndirilməsini, lisenziyanın ləğvini nəzərdə tutur. Belə ki, daşıyıcı malların və nəqliyyat vasitələrinin gömrük nəzarəti altında daşınmasını həyata keçirən hüquqi şəxslər və sahibkarlıqla məşğul olan fiziki şəxslər ola bilərlər, müvafiq orqanın fəaliyyəti bu daşıyıcıların siyahılarını nəşr etmək, rəsmi saytda yerləşdirmək və məlumatların daimi yenilənməsini təmin etməkdən ibarət olacaq. Daşıyıcıların siyahısının nəşr edilərək gömrük orqanının rəsmi internet saytında yerləşdirilməsi daşıyıcıları xarici ticarət iştirakçıları üçün əlçatan edəcək, digər tərəfdən isə bu xidməti həyata keçirən şəxslərin uçotu və elektron tarixçəsi formalaşdırılacaq.

**Gömrük bəyannaməsi sadələşdiriləcək**

İnstitisional islahatların digər bir istiqaməti və biznes üçün xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri bəyannamə sisteminin təkmilləşdirilməsidir. Azərbaycan gömrüyündə bəyannaməçinin, mal sahibinin, səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin iştirakı olmadan malların və nəqliyyat vasitələrinin yoxlanılması barədə tərtib olunan aktın 2 iş günü ərzində təqdim edilməsi nəzərdə tutulur. Bundan başqa, gömrük nəzarətinin formaları olan gömrük baxışı (məqsədləri, aparılma yeri, vaxtı və sair məsələlər tənzimlənməklə) və gömrük yoxlamasının




aparılmasının Məcəllə ilə təfsilatlı (92-1 və 92-2-ci madddələr) tənzimlənməsi planlaşdırılır. “Baxış”, “müayinə” və “yoxlama” kimi halların digər qanunvericilik praktikasında ciddi tənzimlənməsi təcrübəsindən irəli gəlir və bu eyni zamanda gömrük orqanlarının bütün fəaliyyətinin hüquqi çərçivəyə salınmasını təmin edir. Eyni zamanda, gömrük auditinin, o cümlədən kameral və səyyar gömrük auditinin aparılmasının xüsusiyyətlərinin tənzimlənməsi, gömrük rəsmiləşdirilməsinin bəyannaməçinin seçimi və gömrük orqanlarının razılığı ilə digər yerlərdə də aparıla bilməsi, gömrük rəsmiləşdirilməsinin güzəştli və sadələşdirilmiş qaydasının tətbiq edildiyi gömrük əməliyyatlarının dairəsinin genişləndirilməsi, qısa idxal bəyannaməsinin beynəlxalq təcrübəyə uyğun olaraq ləğvi müddətinin tənzimlənməsi də qanun layihəsində nəzərə alınıb.

**Borcun bir qismi ödəndiyi halda ümumi borc azaldılacaq**

Qanunvericiliyə təklif edilən dəyişikliklərin istiqamətlərindən biri də yoxlama prosedurlarının optimallaşdırılması və gömrük borclarının tənzimlənməsi ilə bağlıdır. Belə ki, biznes subyektləri gömrük borcunun bir qismini ödədiyi halda təminatın mütənasib olaraq azadılması imkanı təmin ediləcək.

İslahatlar çərçivəsində gömrük təmsilçiliyinin yenidən instututlaşdırılması, o cümlədən təmsilçilik imkanlarının liberallaşdırılması çərçivəsində “gömrük brokeri” anlayışı “dolayı gömrük təmsilçiliyi” ilə əvəz edilir. Gömrük brokeri fəaliyyəti lisenziya əsasında həyata keçirilirdisə, “dolayı gömrük təmsilçisi” olmaq üçün müvafiq reyestrə daxil olma şərtdir. “Dolayı gömrük təmsilçisi” reyestrinin gömrük orqanının saytında yerləşdirilməsi xarici ticarət iştirakçılarının bu peşəkar xidmətdən istifadə imkanını artıracaq, bu sahədə xidmətin və rəqabətli mühitin formalaşmasına xidmət edəcək. Birbaşa gömrük təmsilçiliyi fiziki şəxslər tərəfindən təmsil edilən şəxsin verdiyi etibarnamə əsasında həyata keçiriləcək ki, bu da xarici ticarət iştirakçıları üçün əlavə imkanlar yaradır.

**Malların gömrük dəyəri manatla bəyan ediləcək**

Gömrük qanunvericiliyində nəzərdə tutulan mühüm hədəflərdən biri malların gömrük dəyərinin milli valyuta ilə bəyan edilməsidir. Gömrük Məcəlləsinə təklif edilən yeni - 220.3-cü maddəyə əsasən, malların gömrük dəyəri Azərbaycan manatı ilə bəyan ediləcək. Belə ki, idxal-ixrac əməliyyatlarında məhsulun dəyərinin xarici valyuta əvəzinə, Azərbaycan Respublikasının milli pul vahidi ilə gömrük bəyannaməsində göstərilməsidir. Bu dəyişiklik daha şəffaf və sadələşdirilmiş hesablanma proseduru yaratmaq məqsədi daşıyır. Eləcə də, hədəf gömrük borclarının hesablanması prosesini asanlaşdırmaq və ödənişlərdə yaranan nöqsanları aradan qaldırmaqdır. Bu tədbirlər həm də gömrük uçotunun təkmilləşdirilməsi və valyuta risklərinin minimuma endirilməsinə xidmət edir.

Beləliklə, dəyişiklikdən sonra malın sövdələşmə qiyməti (faktiki dəyər) və daşınma xərcləri əsasında müəyyən edilən məbləğ milli valyuta ekvivalenti ilə qeyd olunacaq. Statistik dəyər isə beynəlxalq hesablaşmalarda olduğu mexanizmə əsaslanacaq. Yəni, gömrük dəyəri manatla bəyan edilsə də, bəzi statistik göstəricilər ABŞ dolları ilə qeyd oluna bilər.

*E.CƏFƏRLİ*

# Moskvadan Ermənistana növbəti xəbərdarlıq

## Bu dəfə hərbi təlim hədəfə çevrildi

**Ermənistan Qərb ölkələri ilə münasibətləri gücləndirməkdə davam edir. Rəsmi İrəvan, bu kontekstdə hərbi əməkdaşlığı da genişləndirir. Bu da Rusiya tərəfindən qıcıqla qarşılanır. Uzun illər Rusiyanın təsir dairəsində olan bu ölkənin artıq Qərbə meyllənməsini Moskva həzm etmək istəmir.**

### Rusiya niyə narahatdır?

Yeri gəlmişkən, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistanda keçirilən “Qartal Tərəfdaş-2026” (Eagle Partner) beynəlxalq hərbi təlimini tənqid edərək, bu təlim zamanı erməni hərbi qulluqçularına “Rusiya əleyhinə müharibə aparmağın öyrədiləcəyini” bəyan edib. Onun sözlərinə görə, bu cür təşəbbüslər NATO-nun Ermənistanı Rusiyadan uzaqlaşdırmaq siyasətinə uyğun gəlir. Xatırladaq ki, “Qartal Tərəfdaş” beynəlxalq hərbi təlimi Ermənistanda 2023-cü ildən etibarən keçirilir. Bu il o, artıq dördüncü dəfə təşkil olunur.

Əgər əvvəlki illərdə təlimdə yalnız Ermənistan və Amerika Birləşmiş Ştatlarının hərbi qulluqçuları iştirak edirdisə, bu il onlara Fransa və Yunanıstan hərbçiləri də qoşulub. Ermənistan Müdafiə Nazirliyinin və ABŞ-ın Ermənistandakı səfirliyinin verdiyi məlumata görə, təlimin məqsədi sülhməramlı bölmələrin hazırlığını artırmaq, beynəlxalq tərəfdaşlarla əməkdaşlıq və təcrübə mübadiləsi imkanlarını inkişaf etdirməkdir. Yəni rəsmi açıqlamaya əsasən, söhbət sülhməramlı missiyalardan gedir, hərbi əməliyyatlara hazırlıqdan və ya Rusiyaya qarşı müharibə planlarının işlənməsindən deyil. Digər tərəfdən, qeyd olunub ki, “Qartal Tərəfdaş” NATO tərəfindən təşkil olunan və ya həyata keçirilən bir təlim deyil, alyansın rəsmi irimiqyaslı təlimlər siyahısına daxil edilməyib. Təlim NATO tərəfindən deyil, Ermənistan və NATO-ya üzv olan ayrı-ayrı dövlətlərin əməkdaşlığı çərçivəsində təşkil olunur.

Rusiyanın tənqidləri isə yeni deyil. Hələ 2023-cü ildə Ermənistan və ABŞ-ın birgə təlimlərinə toxunan Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov qeyd etmişdi ki, KTMT təlimlərindən imtina edib ABŞ ilə birgə məşqlər keçirmək “dərin təhlilə ehtiyac duyur”. 2024-cü ildə isə Mariya Zaxarova Ermənistan ərazisində keçirilən birgə Ermənistan-ABŞ hərbi təlimini tənqid edərək bildirmişdi ki, bu cür “qartal tərəfdaşlıqları” həmişə pis nəticələnir.

### İrəvan Zaxarovanın iddiaları ilə razılaşmır

Göründüyü kimi, Ermənistanın KTMT-dəki iştirakını dondurması fonunda “Qartal Tərəfdaş” təlimi Rusiyada siyasi rezonans doğurub. Lakin erməni tərəfi hesab edir ki, Zaxarovanın təlim zamanı “erməni hərbi qulluqçularının Rusiyaya qarşı müharibəyə hazırlandığı” barədə iddiası manipulyativdir.

Erməni hərbi ekspert Leonid Nersisyan hesab edir ki, Ermənistanda keçirilən birgə hərbi təlimlər yalnız başlanğıcdır. Onun sözlərinə görə, hazırda Ermənistan ordusunun daha ciddi hərbi təlimlərə, məsələn, quru qoşunlarının təlimlərinə ehtiyacı var: “Söhbət təkcə hərbi təlimlər və ABŞ-la hərbi sahədə əməkdaşlıqdan getmir. Məsələn, artıq Amerika ordusunun nümayəndəsinin Ermənistanın Müdafiə Nazirliyində işləməsi ilə bağlı qərar var ki, bunu da çox mühüm sayıram”. Hələ ötən il ABŞ Dövlət katibinin mülki təhlükəsizlik, demokratiya və insan haqları üzrə müavini Uzra Zeya da “Hetq” nəşrinə müsahibəsində ABŞ ordusunun nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyində çalışacağını təsdiqləmişdi.

Eyni zamanda, Fransa da Ermənistanı fəal şəkildə silahlandırır. Bu ölkə də Ermənistan vasitəsilə Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışır. Parisin məqsədi regionda yeni müharibə alovlandırmaqdır. Fransa ilə yanaşı, Hindistan da Ermənistana silah satışını davam etdirir. Təsadüfi deyil ki, Ermənistan ordusunun hərbi qulluqçuları ABŞ-la birgə təlimlər zamanı Hindistan istehsalı olan dəbilqəyə quraşdırılan termal görüntülü monokulyardan istifadə ediblər. Hindistanın “Tonbo Imaging” şirkətinin istehsalı olan bu avadanlıqlar Ermənistan ordusunda əvvəllər mövcud olmayıb.

Ümumiyyətlə, məsələnin görünməyən tərəfi bütün region üçün narahatlıq doğuran perspektivlərlə bağlıdır. Burada bir sıra məqamlara diqqət yetirmək lazım gəlir. Məğlub Ermənistanda baş qaldıran revanşizmin birgə hərbi təlimlərin baş tutmasına səbəb olan əsas amillərdən biri kimi qeyd edə bilərik. Sülh prosesinin müəyyən qədər irəlilədiyi bir ərəfədə Ermənistanda revanşizm mövqeyindən çıxış edən qüvvələr fəallıqlarını artırıblar. Parlament seçkilərinin nəticələrini qəbul etməyən revanşist müxalifət ölkədə daxili siyasi gərginliyi artırmağa çalışır. Lakin hakimiyyət də yerində saymır, pozuculuqla məşğul olan müxalifləri zərərsizləşdirir. Baş nazir Paşinyanın keçmiş prezident Robert Koçaryanla bağlı son bəyanatı, onun ölkədən çıxışına icazə verilməməsi bunun göstəricisidir.

Bütün bunların fonunda Paşinyan hakimiyyəti tamamilə Rusiyadan qopmaq, Qərbə yaxınlaşmaq siyasətini davam etdirir. Bu ölkədə siyasi oriyentasiyanın dəyişməsi dövlət siyasəti səviyyəsinə yüksəldilib. Hazırda məlum səbəblərdən Rusiyanın başı müharibəyə qarışıb. Ermənistan isə tabeçilik ünvanını dəyişməyə, hazırda ona istədiyi qədər yardım, dəstək göstərməyən Rusiyadan qopmağa cəhdlər edir. Eyni zamanda, hazırda N.Paşinyan Rusiyanı öz hakimiyyəti üçün ən böyük təhlükə sayır.





Bununla belə, Rusiyanın Ermənistana təsir imkanları hələ də çoxdur. Xatırladaq ki, Ermənistanda yerləşən Rusiyanın 102-ci hərbi bazası 1995-ci ildə yaradılıb və hazırda da fəaliyyət göstərir. İlkin olaraq Ermənistanla Rusiya arasında hərbi əməkdaşlıq haqqında saziş 25 il müddətinə bağlanıb. 2010-cu ildə Rusiya prezidentinin İrəvana səfəri zamanı müqavilənin müddəti daha 49 il - 2044-cü ilə qədər uzadılıb. 102-ci hərbi baza Rusiya Federasiyasının Şimali Qafqaz hərbi dairəsinin Qafqazdakı Qoşun Qruplaşmasına tabedir. Bazada digər silah və hərbi texnika ilə yanaşı, S-300 zenit-raket kompleksi və Miq-29 qırıcıları da var. Bazanın

### KTMT, yoxsa...

şəxsi heyəti 4 mindən çox hərbi qulluqçudan ibarətdir.

Yeri gəlmişkən, bugünlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov qeyd edib ki, Ermənistan formal olaraq KTMT-nin tamhüquqlu üzvü olaraq qalır: “Ermənistan formal olaraq təşkilatın tamhüquqlu üzvü olaraq qalsa da, KTMT tədbirlərində iştirak etmir”. O əlavə edib ki, İrəvanın Avropa İttifaqı və Avrasiya İqtisadi İttifaqı arasında seçim etməsi lazımdır və bu məsələ aktualdır: “Ermənistan artıq Avropa İttifaqına qoşulmaq haqqında qanun qəbul edib, ona görə də məsələ onsuz da aktualdır”. Lavrov diqqətə çatdırıb ki, Ermənistan NATO ilə qarşılıqlı fəaliyyətini sistematik şəkildə artırır: “Fikrimcə, KTMT-də iştirak etməsə və iki ildən çoxdur formal üzv olaraq qalsa da, erməni həmkarlarımız tədbirlərdə iştirak etmirlər. Eyni zamanda, onlar NATO-nun üzv ölkələri ilə əməkdaşlığı fəal şəkildə genişləndirir, hərbi təlimlər keçirir, hərbi texnika alırlar. Bundan başqa, Ermənistan rəhbərliyi həm NATO, həm də indi hərbiləşdirilmiş bir quruma çevrilən Avropa İttifaqı ilə hərbi nümayəndə heyətləri səviyyəsində mübadilə aparır. KTMT ölkələri respublikanın iki ildir üzvlük haqqını ödəməməsi səbəbindən Ermənistana qarşı təşkilatın nizamnaməsinin müvafiq maddəsinin tətbiq edilməsini nəzərdən keçirmək barədə razılığa gəliblər. Bu, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Nizamnaməsində nəzərdə tutulan vəziyyətdir”.

*Nardar BAYRAMLI*

# ABŞ ilə İran üz-üzə - bu dəfə masa arxasında...

## İsveçrədə danışıqların birinci raundu çərçivəsində görüş keçirilib

Ötən həftə sonu İsveçrənin Bürgenştok şəhərində ABŞ-İran danışıqları baş tutdu. Qeyd edək ki, əvvəlcə Vaşinqton və Tehran arasında danışıqların iyunun 19-da keçirilməsi planlaşdırılsa da, sonradan təxirə salınmışdı. “Financial Times” və CNN bunu bunu İsrailin Livana zərbələri ilə əlaqələndirmişdi. Görüş iyunun 21-də baş tutdu. ABŞ-ın vitse-prezidenti C.D.Vensin rəhbərlik etdiyi nümayəndə heyəti prezidentin xüsusi elçiləri Stiv Vitkoff və Cared Kuşnerdən ibarət olub. İran




nümayəndə heyətinə isə parlament sədri Məhəmməd Bağır Qalibaf və xarici işlər naziri Abbas Əraqçi rəhbərlik edib. Tehranı danışıqlarda Ali Milli Təhlükəsizlik Şurasının Katibliyinin beynəlxalq məsələlər üzrə müavini Əli Baqeri, Mərkəzi Bankın rəhbəri Əbdülnasir Hemmati, neft nazirinin müavini və İran Milli Neft Şirkətinin sədri Həmid Bord, eləcə də xarici işlər nazirinin müavinləri Kazem Qəribabadi və İsmayıl Bəqayi təmsil edib.

Danışıqların başlanması Pakistanla birlikdə vasitəçi kimi çıxış edən Qətər Xarici İşlər Nazirliyi tərəfindən elan edilib. Nazirlik həmçinin əlavə edib ki, anlaşma memorandumunun bütün aspektlərini əhatə edən yekun razılaşmanın şərtlərini müzakirə etmək üçün texniki və ekspert qrupları yaradılıb. “Bundan əlavə, memorandumun icrasına nəzarət etmək, irəliləyişi izləmək və yekun razılaşmaya doğru işləmək üçün izləmə qrupları yaradılıb. Bu, bütün tərəflərin hərtərəfli və davamlı bir razılaşma əldə etmək məqsədi ilə danışıqlar prosesini vicdanla irəlilətmək öhdəliyini əks etdirir”, - deyə Qətər Xarici İşlər Nazirliyi bildirib.

**Texniki xarakterli görüşlər...**

Qeyd edək ki, danışıqlardan öncə mətbuata açıqlamasında ABŞ vitse-prezidenti Vens bildirmişdi ki, danışıqlar texniki xarakter daşıyır və hər bir fikir ayrılıqları burada tam həll edilməyəcək. O, həmçinin qeyd edib ki, görüş hər tərəf üçün vacib olanı aydınlaşdırmaq, bu məsələləri həll etmək və “daha yaxşı bir sabaha doğru” irəliləmək üçün fürsət yaradır. ABŞ vitse-prezidenti həmçinin Hörmüz boğazı-




nın açılmasına və İranın nüvə proqramının sona çatmasına artıq nail olunduğunu bildirib. Vens əlavə edib ki, “İndi sual birlikdə nə qədər daha çox şeyə nail ola biləcəyimizdir”.

Fars agentliyi dördtərəfli görüşün daxili məsləhətləşmələr üçün 80-ci dəqiqədə dayandırıldığını bildirib. “Tasnim” agentliyi mənbəyə istinadən bildirib ki, İran nümayəndə heyəti danışıqlar başlamazdan əvvəl ABŞ nümayəndələri ilə birgə şəkil çəkdirməkdən imtina edib. Danışıqların iştirakçılarının əvvəlcə görüşüb əl sıxması gözlənilirdi.

**Prioritetlər nədir?**

Danışıqlardan öncə ayrı-ayrı mövqelər bəlli idi. ABŞ danışıqlarda Vaşinqtonun prioritetləri olan nüvə məsələsində “irəliləyiş əldə etmək” və Livanda atəşkəs məsələsi üzərində dayanırdı. İranın mövqeyi isə ondan ibarət idi ki, İsveçrədəki danışıqlar qarşı tərəfin öz öhdəliklərini yerinə yetirməsini təmin etmək üçün lazımdır.

Tehran bildirirdi ki, Livan da daxil olmaqla bütün ərazilərdə hərbi əməliyyatlar dayandırılmalıdır.

Yayılan məlumatlarda bildirilirdi ki, Vaşinqton ilk addım kimi BMT müfəttişlərinin nüvə obyektlərinə baş çəkməsini istəyir - bunun müqabilində Tehranın bəzi dondurulmuş aktivlərinə giriş imkanı veriləcəkdi. Portalın mənbələri bildirib ki, icazə müqabilində Vaşinqton Tehrana humanitar yardım üçün istifadə edilə biləcək Qətərdəki 6 milyard dollarlıq hesabdan başlayaraq bəzi dondurulmuş aktivlərinə giriş imkanı verməyə hazırdır.

İranın Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai bildirib ki, Tehran Livan da daxil olmaqla bütün cəbhələrdə müharibəyə son qoymaq bəndini yerinə yetirmədən yekun razılaşma üzrə danışıqlara başlamayacaq. O, bunu sosial media hesabında yazıb. “İsveçrədə bu gün (iyunun 21-də) keçirilən görüş müharibənin sona




çatması ilə bağlı anlaşma memorandumunun müddəalarının həyata keçirilməsinə həsr olunub. Memorandumun 13-cü bəndinə əsasən, yekun razılaşma üzrə danışıqların başlanması 13 və 1, 4, 5, 10 və 11-ci bəndlərin yerinə yetirilməsi ilə bağlıdır. Bu bəndlərin, xüsusən də 1-ci bəndin (Livan da daxil olmaqla, bütün cəbhələrdə müharibənin sona çatması) həyata keçirilməsi olmadan yekun razılaşma üçün danışıqlar mərhələsinə keçmək mümkün deyil”, - deyə Bəqayi yazıb.

Həmçinin İranın “Tasnim” xəbər agentliyi danışıqlar qrupuna yaxın mənbəyə istinadən bildirib ki, İran Livana qarşı hücumların dayandırılmayana və İran nefti və neft məhsullarının satışına icazələr verilməyənə qədər Hörmüz boğazını açılmayacağını bildirib.

Pakistan Xarici İşlər Naziri İshaq Dar isə ABŞ və İranın Tehranın uran ehtiyatlarının zənginləşdirilməsi səviyyəsini azaltmaq barədə razılığa gəldiyini açıqlayıb. Bu arada, ABŞ prezidenti Donald Tramp iyun ayında ABŞ-ın sülh razılaşmasının əldə edilib-edilməməsindən asılı olmayaraq İrandan yüksək dərəcədə zənginləşdirilmiş uranı çıxaracağını və məhv edəcəyini bildirib. ABŞ rəsmilərinin sözlərinə görə, İran əsasən İsfahanda təxminən 440 kq yüksək dərəcədə zənginləşdirilmiş uran saxlayır.

**Tramp hədələdi...**

Danışıqlar zamanı fors-major situasiya da yaranıb. Tramp Fox News-a verdiyi açıqlamada İranla danışıq aparan qrup ilə əlaqə saxladığını və “Hörmüz boğazını bağlasanız, ölkəniz olmayacaq. Hətta öz ölkənizə belə qayıda bilməyəcəksiniz” dediyini bildirib. Ağ Ev rəhbəri xəbərdarlıq edərək deyib ki, “Əgər onlar razılaşma əldə etməsələr, biz qiymət təyin edəcəyik” və əlavə edib ki, ABŞ boğazın “qəyyum mələyi”nə çevrilə və daşınan neftin 20 faizinə nəzarət edə bilər. Tasnim yazır ki, İran nümayəndə heyəti Trampın təhdidlərinə görə ABŞ nümayəndələrinə etiraz edib və danışıqlar platformasını tərk edib. İran parlamentinin sədri Məhəmməd Baqer Qalibaf bildirib ki, ABŞ tərəfi öz açıqlamalarında diqqətli olmalıdır, çünki İran ordusu “fərqli cavab verməyə hazırdır”. “Onlar başa düşmürlərmi ki, əgər təhdidləri ümumiyyətlə təsirli olsaydı, indiki çarəsizlik səviyyəsinə çatmazdılar? Biz Amerika təhdidlərini nəzərə almırıq”, - deyə o əlavə edib.

Axios isə yayıb ki, ABŞ və İran nümayəndə heyətləri arasında danışıqlar dayandırılmayıb və İran nümayəndə heyəti görüş məkanını tərk etməyib.

**Razılıq əldə olunub...**

Qətər Xarici İşlər Nazirliyi açıqlayıb ki, ABŞ və İran nümayəndə heyətləri arasında görüşlər iyunun 22-də başa çatsa da, vasitəçilərlə texniki danışıqlar həftənin sonuna qədər davam edəcək. Qeyd edilib ki, görüşlər məhz İsveçrənin Bürgenstok dağ kurortunda davam etdiriləcək. Vurğulanıb ki, danışıqlar zamanı tərəflər Livanda hərbi əməliyyatlara son qoymaq üçün mexanizm barədə razılığa gəliblər və ticarət gəmilərinin Hörmüz boğazından təhlükəsiz keçməsini təmin etmək üçün rabitə xətti açıblar.

Qeyd edək ki, İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Bəqai də bildirib ki, Tehran və Vaşinqton gəmilərin Hörmüz boğazından təhlükəsiz keçməsi üçün təcili mexanizm yaratmaq barədə razılığa gəliblər. Onun sözlərinə görə, danışıqlarda həmçinin neft satışına icazələrin verilməsi və İranın dondurulmuş aktivlərinin bərpası müzakirə olunub. Bəqayi həmçinin təsdiqləyib ki, Tehran ABŞ tərəfinin təhdidli açıqlamalarına görə İsveçrədə ABŞ ilə dördtərəfli görüşü davam etdirməkdən imtina edib. “Çox uzun bir gün keçirdik. Dördtərəfli görüşlər zamanı ABŞ-dan təhdidli açıqlamalar yayıldı və bu da İranı bu şəraitdə dördtərəfli görüşü davam etdirməyə hazır olmadığını bəyan etməyə vadar etdi”, - Bəqayi deyib.

O əlavə edib ki, danışıqların gedişi iyunun 21-də başa çatıb, lakin texniki qrup öz işini iyunun 22-də davam etdirib. Razılaşmaya görə, danışıqlardan on səkkiz saat sonra iki vasitəçi ölkə - Qətər və Pakistan əldə edilən razılaşmaların əsas məqamlarını özündə əks etdirən razılaşma şəklində sənəd yayacaq. Eyni zamanda Bəqayi Livan da daxil olmaqla bütün cəbhələrdə hərbi əməliyyatların dayandırılmalı olduğunu təkrarlayıb. İran İslam Respublikasının xarici işlər naziri Abbas Əraqçi “X” sosial media platformasında bildirib ki, Tehran Qətər və Pakistan sayəsində İsveçrənin Bürgenştok şəhərində keçirilən müzakirələr zamanı neft ixracı və İranın aktivlərinin dondurulmasının ləğvi də daxil olmaqla bir sıra məsələləri həll etməyə razılaşıb. IRIB xəbər agentliyi isə bildirib ki, İran və ABŞ Livanda anlaşma memorandumunun müddəalarına uyğun olaraq hərbi əməliyyatların dayandırılmasına riayət olunmasını təmin etmək üçün vasitəçilərin iştirakı ilə “münaqişələrin həlli bölməsi” yaratmaq barədə razılığa gəliblər.

***P.İSMAYILOV***

# İdeyalar aləminə səyahət

## Tomas Mannın “Sehirli dağ” romanı haqqında

**əvvəli ötən saylarımızda**

Həm də bunlar zahiri görüntü deyil, onlar içdən, canı-dildən dərrakəli, ləyaqətlidirlər: “Onların varlığının əsasına qoyulmuş ruh, içində yaşadıqları, bir-biriylə ünsiyyət saxladıqları o ruh, o məna - bax bunlardır məni riqqətə gətirən!” - Hans yuxunun aurasından çıxa-çıxa belə düşünür. Sonra, necə deyərlər, kadr dəyişir, qəhrəman özünü möhtəşəm bir məbədin içində, azman sütunların arasında görür. Burada (bəli, məhz məbəddə!) eybəcər qoca qarılar, müdhiş görkəmli ifritələr körpə-körpə uşaqları parçalayıb yeyirlər. Qəhrəmanın uzun daxili monoloqundan bəzi qırıntılara diqqət yetirək:

“O gözəl körfəz, cənnət, sonra da o qorxunc sütunlar, o qaranlıq məbəd - haradan gəlib bunlar mənim ağlıma? Xəyal axı təkcə sənin qəlbində yaranmır, sən adsız-ünvansız, kollektiv şəkildə, bununla belə öz kökün, öz havan üstə xəyala dalırsan. Bir zərrəsi olduğun böyük ruh öz gəncliyi, ümidləri, xoşbəxtliyi, dünyası, nəhayət, qanlı ziyafəti haqqında sənin vasitənlə, sənsayağı düşünür...

Mən məbəddəki iyrənc ziyafətin fonunda insanın təyinatı, onun ləyaqətli, xeyirxah yoldaşlığı haqqında yuxu gördüm. Olmaya günəşli insanlar ona görə elə nəzakətli, elə diqqətlidirlər ki, törədilən dəhşətdən gizlində xəbərdardırlar? Mən nə Nafta, nə də Settembrini - bu iki çərənçinin heç biriylə yox, onlarla birlikdəyəm...

Nəcib olan nədir: həyat, ya ölüm; sağlamlıq, yoxsa xəstəlik; ruh, yainki təbiət? Məgər bunlar təzaddırmı? Ölümə fərarilik həyatdan ayrılmazdır, onsuz həyat da olmazdı, Allah bəndələrinin təyinatı ikisinin ortasında - dezertirliklə ağılın arasında durmaqdır. İnsanın səltənəti də mistik vəhdətlə fani individualizmin arasındadır. İnsan təzadların ağasıdır, ziddiyyətlər ondan keçməklə var olur...

Mən xeyirxah olacağam, ölümə fikirlərimi yönəltmək imkanı verməyəcəyəm. Ölüm - çox böyük qüvvədir, onun hüzurunda hər kəs şlyapasını çıxarıb boynunu bükür, ayağını yerə ehtiyatla basır. Ağıl onun qarşısında səfehdir, ölümsə azadlıqdır, fərarilikdir, formasızlıq, şəhvətdir. Mənim yuxum deyir ki, şəhvət məhəbbət deyil. Sevgiylə ölüm kimi iki anlayışı bir-birinə calamağına dəyməz, nəticəsi dadsız-tamsız, bayağı bir meyvə bitirmək olacaq...

Sevgi ölümə qarşıdır, ağıl yox, yalnız məhəbbət ölümdən güclüdür. Ağıl yox, yalnız məhəbbət bizə xeyirxah fikirlər təlqin eləyir. Qəlbimdə mən ölümə sədaqətimi qoruyacağam, ancaq bunu da yadımda möhkəm saxlayacağam ki, ölümə, keçmişə sədaqət - fikirlərimizi, xəyallarımızı yönəltdiyi zaman şərdir, gizli bir şəhvətpərəstlik, insan düşmənliyidir. Məhəbbət, xeyir naminə insan gərək ölümə fikirlərini yönəltmək ixtiyarı verməsin...”

Tomas Mannın həm dostluq elədiyi, həm də təsirləndiyi yaşıdı Karl Yunqun arxetiplər nəzəriyyəsinin gözlüyündən baxsaq, Hans Kastorp yuxusunda işıqla kölgənin, xeyirlə şərin, cənnətlə cəhənnəmin, ruhla bədənin kontrastını görür. Qəhrəmanın bundan sonrakı həyatı bu iki qütbün arasında keçəcək - o ya cənnətini tapıb gerçək məninə qovuşacaq, ya da cəhənnəmdəki adamyeyən ifritələrin yırtıcı dişləri altında ilmi-zalım çeynənəcək.

***

İyulun sonlarında Yoaxim sanatoriyaya qayıdır. Qohumu Hansa madam Şoşadan salam gətirir - Klavdiya deyib ki, payızı İspaniyada keçirəcək, qışda isə “Berqhof”a gələcək. Kastorp Naftadan Settembrininin mason olduğunu öyrənir.

Payız gələndə Yoaximin vəziyyəti ağırlaşır. Yalnız bundan sonra o, uzun müddət eyni masa ətrafında oturduğu, gizli-gizli göz qoyduğu Marusya adlı qızla danışmağa özündə cəsarət tapır. Çox keçmədən Yoaxim öz yatağında, anasının, Hansın gözləri qarşısında cavan canını ölümə tapşırır.

Milad bayramı ərəfəsində Klavdiya Şoşa “Berqhof”a qayıdır. Bu dəfə qadın tək deyil, varlı holland, qəhvə plantatoru Piter Peperkorn onu müşayiət eləyir. Hans üzdə Klavdiyaya qarşı nəzakətli, təmkinli davransa da, içi qəzəbdən, qısqanclıqdan alışıb yanır. Gəlişindən bir neçə həftə keçmiş madam Şoşa Kastorpu söhbətə tutur, onu Peperkornla tanış eləyir. Klavdiya, Piter, bir də Hans başqa pasiyentlərlə birlikdə altı saat kart oynayır, şərab içir, ləzzətli təamlardan dadırlar.

Çox keçməmiş Hansla Peperkorn arasında qarşılıqlı rəğbətə əsaslanan dostluq münasibəti yaranır, holland maqnatın coşqun xasiyyəti gənc qəhrəmanda səmimi heyranlıq doğurur. Oğlan Piterlə Klavdiyanı da sıx ünsiyyətdə olduğu tanışlarının, o cümlədən ideoloji mübahisələr üzündən heç cür yola getməyən “müəllimlərinin” çevrəsinə qoşur. İkilikdə söhbətləri əsnasında Klavdiya qəhrəmana deyir ki, hollandla bir yerdə olmağının səbəbi Piterin ona böyük məhəbbət bəsləməyidir, hərçənd Peperkornun çılğın xarakteri arabir onda qorxu, əsməcə oyadır. Odur ki, madam Şoşa gənc aşiqdən öz sevgisi xatirinə romantik maqnatla dostluq sazişi bağlamağı xahiş eləyir, ardınca da xahişini Hansın dodağından aldığı bir öpüşlə möhürləyir.

Söhbətlərin birində Peperkorn madam Şoşanı sevib-sevmədiyini Hansdan açıq soruşanda gənc aşiq hissini danmır. Onda holland tacir ona Klavdiyaya bəslədikləri məhəbbət əsasında dostluq ittifaqı bağlamağı təklif eləyir. Fəqət maqnat işgüzar həyatının bu sonuncu sazişindən bəhrələnməyə macal tapmır, şəlaləyə baxmaq üçün meşəyə gedən Peperkorn gəzintidən sonra qəfil qanaxmadan ölür. Baş həkimin təsbitinə görə isə holland tacir intihar eləyib.

Doktor Berens Hans Kastorpu sanatoriya şəraitində daha bir neçə ay müalicə almalı olduğuna inandırır. Ancaq dava-dərman müsbət bir nəticə vermir. Sanatoriyanın rəhbərliyi xəstələr üçün qrammofon alır. Musiqi aparatını işlətməyi Kastorp üzərinə götürür, gecələr gizli-gizli melodiyalar dinləyib klassik musiqinin sehrinə düşür.

Zaman ötdükcə doktor Krokovskinin seansları daha çox mistik xarakter alır, o, hipnoz, telepatiya kimi metodları pasiyentlər üzərində sınayır, spiritualizm seansları keçirir, ruh çağırır. Belə magik seansların birində on doqquz yaşlı danimarkalı qız Elli Brand Holger adlı oğlanın ruhuyla ünsiyyətə girir, pasiyentlərə əyan olur ki, bu gənc sağlığında şeir yazırmış. Həmin Holger Hans Kastorpa dayoğlusu Yoaximin ruhunu göstərir.

İllər keçdikcə Settembrini ilə Nafta arasında münasibət daha da gərginləşir, axırda yezuit masonu duelə çağırır. Settembrini havaya atəş açır, Nafta isə onu qorxaqlıqda qınayıb gülləni öz gicgahına sıxır.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# 23 iyun dövlət qulluqçularının peşə bayramıdır

Dövlət qulluğu cəmiyyətin sabit inkişafını, dövlət idarəçiliyinin səmərəli fəaliyyətini, vətəndaşların hüquq və mənafelərinin qorunmasını təmin edən ən məsuliyyətli fəaliyyət sahələrindən biridir. Bu sahədə çalışan insanların əməyinin yüksək qiymətləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Məhz bu məqsədlə hər il 23 iyun tarixi Azərbaycanda dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd edilir. Bayram Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis olunub.

Azərbaycanda dövlət qulluğu sahəsində reallaşdırılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də “Dövlət qulluğu haqqında” Qanunun qəbul edilməsidir. Bu qanunla ölkəmizdə dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub. Bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib. “Dövlət qulluğu haqqında” Qanun qəbul edildikdən sonra mütəmadi olaraq təkmilləşdirilib, 180-dən artıq dəyişikliklə çox mükəmməl bir hüquqi akt yaradılıb.

Dövlət qulluğu sahəsində aparılan islahatlar dövlət qulluqçularının məsuliyyətini gündən-günə artırmaqla yanaşı, onların hüquqlarının və vəzifələrinin müəyyənləşdirilməsi, bu sahədə olan boşluqların aradan qaldırılması istiqamətində yeni bir müstəvi formalaşdırır.

Ölkəmizdə dövlət qulluğu sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində idarəetmə mexanizmlərinin müasirləşdirilməsi, elektron xidmətlərin genişləndirilməsi və vətəndaş məmnunluğunun artırılması istiqamətində mühüm nailiyyətlər əldə edilib. Bu uğurların qazanılmasında isə minlərlə dövlət qulluqçusunun zəhməti və peşəkarlığı həlledici rol oynayıb.



## Dövlət qulluğunun əsas prinsipləri

Dövlət qulluğunun əsas prinsipləri qanunun aliliyi, peşəkarlıq, şəffaflıq, obyektivlik, qərəzsizlik və vətəndaşlara xidmət etməkdən ibarətdir. Dövlət qulluqçusu öz fəaliyyətində dövlət maraqlarını qorumaqla yanaşı, vətəndaşların hüquq və azadlıqlarına hörmətlə yanaşmalı, etik davranış qaydalarına riayət etməlidir. Bu prinsiplər dövlət idarəçiliyinə ictimai etimadın formalaşmasında mühüm rol oynayır.

Rəsmi statistikaya əsasən, 2026-cı il yanvarın 1-nə ölkədə dövlət qulluqçularının sayı 27,3 min nəfər olub. Onların 31,4 faizini qadınlar təşkil edib.

Dövlət qulluqçularının 7,6 faizi inzibati vəzifələrin ali 3-cü təsnifatına, 3,9 faizi 4-cü, 12,4 faizi 5-ci, 8,7 faizi 6-cı, 44,2 faizi 7-ci təsnifata aid olub. Qulluqçuların 23,2 faizi isə yardımçı vəzifələrdə çalışıb.



## 27 mindən çox dövlət qulluqçusu var

Qulluq stajına görə dövlət qulluqçularının 6,6 faizi 1 ilədək, 23,6 faizi 1 ildən 5 ilədək, 23,6 faizi 5 ildən 10 ilədək, 18,8 faizi 10 ildən 15 ilədək, 27,4 faizi isə 15 il və daha çox staja malik olub.

Yaş bölgüsünə əsasən, dövlət qulluqçularının 3 faizi 25 yaşadək, 11,6 faizi 25-29 yaş, 18 faizi 30-34 yaş, 16,7 faizi 35-39 yaş, 13,3 faizi 40-44 yaş, 10,5 faizi 45-49 yaş, 8,1 faizi 50-54 yaş, 7,5 faizi 55-59 yaş, 9,2 faizi 60-64 yaş, 2,1 faizi isə 65 və daha yuxarı yaş qrupuna daxildir.

Məlumata görə, 2025-ci ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki illə müqayisədə 4,5 faiz artıb.

## Peşəkarlıq və məsuliyyət bayramı

Dövlət qulluqçularının peşə bayramı yalnız bu sahədə çalışan insanların əməyinə verilən dəyərin ifadəsi deyil, həm də cəmiyyətə xidmət etməyin nə qədər şərəfli və məsuliyyətli bir missiya olduğunu xatırladan əlamətdar bir gündür. Çünki güclü dövlət idarəçiliyi ilk növbədə öz işinə vicdanla yanaşan, qanunun aliliyini rəhbər tutan və xalqın rifahını hər şeydən üstün hesab edən peşəkar dövlət qulluqçularının fəaliyyəti üzərində qurulur.

Bu əlamətdar gün münasibətilə bütün dövlət qulluqçularını təbrik edir, onların ölkəmizin inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi və vətəndaşlara göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi naminə həyata keçirdikləri şərəfli fəaliyyətlərində yeni uğurlar və gələcək nailiyyətlər arzulayırıq.

*Yeganə BAYRAMOVA*

# Göz rəngini dəyişmək: trend, yoxsa gözəllik qurban tələb edir?

Son illər estetik tibb sahəsində baş verən sürətli inkişaf insanların yalnız üz cizgilərini, bədən quruluşlarını deyil, hətta genetik olaraq sahib olduqları göz rəngini belə dəyişdirməyə imkan verir. Bu əməliyyatlar dünyanın müxtəlif ölkələrində böyük maraq doğuran, eyni zamanda ciddi müzakirələrə səbəb olan prosedurlardan birinə çevrilib. Bir çox insan mavi, yaşıl və ya digər rəngli gözlərə sahib olmağı cazibədarlığın vacib elementi hesab edir. Onlar üçün göz rənginin dəyişdirilməsi ideyası ilk baxışdan olduqca maraqlı və cəlbedici görünə bilər, lakin bu estetik dəyişikliklərin arxasında həm tibbi imkanlar, həm də nəzərə alınmalı olan mühüm risklər dayanır.

Hazırda göz rənginin dəyişdirilməsi üçün istifadə olunan bəzi üsullar arasında iris implantları və lazer texnologiyalarına əsaslanan prosedurlar yer alır. Bu metodlar gözün təbii quruluşuna müəyyən müdaxilələr tələb etdiyindən, onların tətbiqi zamanı peşəkar tibbi nəzarət və ətraflı müayinələr xüsusi əhəmiyyət daşıyır.



Sosial şəbəkələrdə və müxtəlif rəqəmsal platformalarda göz rəngini dəyişdirmiş insanların fotoları milyonlarla baxış toplasa da, bir neçə saniyəlik vizual təsirin arxasında uzun tibbi proseslərin, konsultasiyaların və bəzən gözlənilməz nəticələrin dayandığını unutmamaq lazımdır. Mütəxəssislərin fikrincə, sadəcə estetik məqsədlərlə həyata keçirilən bəzi göz rəngi dəyişdirmə əməliyyatları göz daxili təzyiqin artması, görmə keyfiyyətinin zəifləməsi, iltihab prosesləri və hətta bəzi hallarda geri dönməz görmə problemləri kimi ciddi fəsadlara səbəb ola bilər. Ona görə də bu qərarı verməzdən əvvəl insanın həm əldə etmək istədiyi nəticəni, həm də mümkün riskləri diqqətlə qiymətləndirməsi vacibdir.

**Hər kəs gözünün rəngini dəyişdirə bilməz**

Sözügedən əməliyyatla bağlı fikirlərini “Yeni Azərbaycan”la bölüşən oftalmoloq Gündüz Abbasov bildirib ki, son zamanlar pasiyentlər tərəfindən ən çox ünvanlanan suallardan biri də göz rənginin əməliyyat vasitəsilə dəyişdirilməsinin mümkün olub-olmamasıdır: “Bir oftalmoloq olaraq qeyd etmək istəyirəm ki, müasir tibbin imkanları müəyyən hallarda gözün görünüşünü dəyişdirməyə şərait yaratsa da, bu prosedurların hər biri ciddi tibbi qiymətləndirmə və risk analizindən sonra nəzərdən keçirilməlidir. Hər kəs üçün göz rəngini dəyişdirmə əməliyyatını icra etmək mümkün deyil. Qeyd etdiyim kimi, bu əməliyyatı etməzdən öncə ciddi tibbi yoxlanışlar, müəyyən analizlər lazımdır”.

**Bu problemlərlə qarşılaşa bilərsiniz...**



Həkimin sözlərinə görə, insan gözünün rəngi iris adlanan hissədəki piqment miqdarı ilə müəyyən edilir və bu xüsusiyyət əsasən genetik faktorlarla formalaşdığı üçün təbii göz rənginin dəyişdirilməsi sadə kosmetik prosedur deyil, əksinə, gözün həssas strukturlarına birbaşa təsir göstərə bilən müdaxilə hesab olunur: “Bir çox insan mavi və ya yaşıl gözlərə sahib olmaq arzusuyla bu əməliyyatlara maraq göstərsə də, hər zaman pasiyentlərimə xatırladıram ki, göz yalnız estetik görünüş yaradan bir orqan deyil, eyni zamanda insanın ətraf aləmi qavramasını təmin edən mürəkkəb və əvəzolunmaz sistemdir. Bu sistemdə aparılan hər hansı dəyişiklik gələcəkdə görmə funksiyasına təsir göstərə bilər. Xüsusilə, estetik məqsədlə həyata keçirilən bəzi göz rəngi dəyişdirmə prosedurlarında göz daxili təzyiqin yüksəlməsi, işığa qarşı həssaslığın artması, buynuz qişa problemləri və digər fəsadların yaranma ehtimalı mövcuddur. Bu səbəbdən prosedurun üstünlükləri ilə yanaşı mümkün riskləri də ətraflı şəkildə izah edilməlidir. Təcrübəmdə dəfələrlə müşahidə etmişəm ki, insanlar sosial mediada gördükləri ideal nəticələrdən təsirlənərək qərar verməyə çalışırlar, lakin internetdə paylaşılan şəkillər və videolar çox vaxt prosedurun bütün tərəflərini əks etdirmir. Əməliyyatdan sonrakı nəzarət mərhələləri barədə kifayət qədər məlumat verilmir”.

**Sağlam görmə estetik dəyişiklikdən daha dəyərlidir**

Oftalmoloq qeyd edib ki, göz rəngini dəyişdirməyi düşünən hər bir şəxs ilk növbədə göz sağlamlığını prioritet hesab etməli, geniş oftalmoloji müayinədən keçməli və yalnız tam məlumatlandırıldıqdan sonra qərar verməlidir: “Çünki sağlam görmə qabiliyyəti hər hansı estetik dəyişiklikdən daha dəyərlidir. Unutmaq olmaz ki, gözlər insanın yalnız görünüşünün deyil, həm də həyat keyfiyyətinin ayrılmaz hissəsidir. Bu səbəbdən onların sağlamlığını riskə ata biləcək hər bir qərar maksimum məsuliyyət və peşəkar yanaşma tələb edir”.

*Yeganə BAYRAMOVA*



## Azərbaycan alpinistləri Monte Paterno zirvəsində



Azərbaycan Alpinizm Federasiyasının üzvləri Fidan Məmmədova və Sima Səfərova İtaliyanın şimalında yerləşən Dolomit dağlarında növbəti uğurlu dağçılıq fəaliyyətini həyata keçiriblər.

Federasiyadan AZƏRTAC-a bildirilib ki, idmançılar iyunun 18-19-da UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Dolomit dağlarında yerləşən Tre Çime di Lavaredo massivinin 2744 metr hündürlüyündəki Monte Paterno zirvəsinə uğurla qalxıblar.

Federasiya üzvləri zirvəyə Dolomitlərin ən məşhur və texniki baxımdan maraqlı marşrutlarından hesab olunan De Luca-Innerkofler Via Ferrata xətti üzrə çatıb. Qayalıq keçidləri, ekspozisiyalı hissələri və Birinci Dünya müharibəsi dövründən qalmış tarixi tunelləri ilə seçilən marşrut yüksək hazırlıq və diqqət tələb edir. Via Ferrata xüsusi sığorta trosları, metal pilləkənlər və dayaqlarla təchiz olunmuş qayalıq dağ marşrutlarına verilən addır.

Alpinistlər mürəkkəb dağ relyefi, sıldırım qayalıqlar və yüksək dağ şəraitinin yaratdığı çətinlikləri uğurla dəf ediblər. Zirvədən Tre Çime di Lavaredo, Kadini di Mizurina və ətraf Dolomit silsilələrinin möhtəşəm mənzərələri müşahidə olunub.

Səfər çərçivəsində Fidan Məmmədova və Sima Səfərova regionun dağçılıq infrastrukturu, Via Ferrata sistemləri və təhlükəsizlik standartları ilə də yaxından tanış olublar.

Qeyd edək ki, bu fəaliyyət Azərbaycan alpinizm və dağçılıq idmanının beynəlxalq dağ regionlarında təmsil olunmasına, həmçinin federasiya üzvlərinin texniki hazırlığının və təcrübəsinin artırılmasına mühüm töhfə verir.

## Dünya çempionatının yeni rekordları...

Futbol üzrə dünya çempionatının qrup mərhələsində bir sıra maraqlı statistik göstəricilər qeydə alınır. AZƏRTAC FIFA-ya istinadən xəbər verir ki, İspaniya millisinin futbolçusu Lamin Yamal 18 yaş 343 günlüyündə dünya çempionatları tarixinin ən gənc səkkizinci qol müəllifi olub. O, bu göstəricidə Argentina millisinin sabiq kapitanı Lionel Messini (18 yaş 357 gün) geridə qoyub.

Mayamidə keçirilən Kabo-Verde - Uruqvay qarşılaşması isə mundiallar tarixinə düşüb. Belə ki, ilk dəfə dünya çempionatında 40 yaşdan yuxarı iki futbolçu - qapıçılar Vozinya (40 yaş 18 gün) və Fernando Muslera (40 yaş 5 gün) eyni oyunda iştirak ediblər.



İran millisinin üzvü Əlirza Cahanbaxş dörd dünya çempionatında meydana çıxan ölkəsinin ikinci futbolçusu olub. Daha əvvəl bu uğura yalnız Ehsan Hacısəfi imza atmışdı.

Uruqvaylı Maksi Arauxo isə ilk iki dünya çempionatı matçında qol vuran ilk futbolçu kimi tarixə düşüb. Sonuncu dəfə buna 1954-cü ildə Xuan Hohberq nail olmuşdu.

Misir millisinin lideri Məhəmməd Salah da yeni rekord müəllifi olub. O, 34 yaş 6 günlüyündə dünya çempionatlarında Misir yığması adına qol vuran ən yaşlı futbolçu ünvanını qazanıb. Salah bununla, 1990-cı ildə Niderlanda qarşı oyunda 30 yaş 320 günlüyündə fərqlənən Məcdi Abdelğaninin rekordunu yeniləyib.

Qeyd edək ki, ABŞ, Meksika və Kanadanın birgə ev sahibliyi etdiyi dünya çempionatına iyulun 19-da yekun vurulacaq.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5345
Sifariş: 815
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova